# 27 SENTYABR - ANIM GÜNÜ

*Təhsil millətin gələcəyidir!*

*Heydər Əliyev*



# AZƏRBAYCAN MÜƏLLİMİ

Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyinin orqanı

27 sentyabr 2025-ci il №36 (9142) www.muallim.edu.az muallim@media.edu.az


Prezident Donald TRAMP:

## Mən Sizinlə həqiqətən fəxr edirəm



Sentyabrın 23-də Nyu-Yorkda Amerika Birləşmiş Ştatlarının Prezidenti Donald Trampın və birinci xanım Melaniya Trampın adından BMT Baş Assambleyasının 80-ci sessiyası ilə əlaqədar rəsmi qəbul təşkil olunub.

AZƏRTAC xəbər verir ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva tədbirdə iştirak ediblər.

Rəsmi qəbulda çıxış edən Amerika Birləşmiş Ştatlarının Prezidenti **Donald Tramp** dedi: Ermənistan və Azərbaycan. Mən Sizə təşəkkür etmək istəyirəm, dostum. Oradakı münaqişənin iyirmi iki il davam etdiyini dediniz, düzdür, 22 il? Bu 22 il ərzində Siz müharibə şəraitində idiniz.

### Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva BMT Baş Assambleyasının 80-ci sessiyası ilə əlaqədar rəsmi qəbulda iştirak ediblər

**Prezident İlham Əliyev:** Daha da çox.

**Prezident Donald Tramp:** Bundan da çox?

**Prezident İlham Əliyev:** 30 ildən artıq. Siz möcüzə yaratdınız, cənab Prezident. Təşəkkür edirəm.

**Prezident Donald Tramp:** Mən bir neçə dost qazandım. Təşəkkür edirəm. Çox gözəl oldu. Bu gün Yaxın Şərq ölkələrinin liderləri ilə gözəl bir görüş keçirdik. Onlar möhtəşəm insanlardır və mənim dostlarımdır. Biz onları bir araya gətirməli və həmin müharibəyə tez bir zamanda son qoymalıyıq. Bunu tez etmək istəyirik və məncə, biz həqiqətən yaxşı bir plan hazırlamışıq. Məncə, o, tez həyata keçirilə bilər.

Bilmirəm, bunu Sizin planınız qədər tez həyata keçirə biləcəyik ya yox. Bütün bu illər ərzində buna cəsarət lazım idi. Bu, həqiqətən Sizin və yeni dostunuzun sayəsindədir. Həqiqətən yaxşıdır. Necə gedir işlər? Yaxşıdır? Atışma yoxdur? Heç nə yoxdur?

**Prezident İlham Əliyev:** Xeyr, xeyr. Hər şey tamamilə bitib. Avqustun 8-də buna son qoyuldu.

**Prezident Donald Tramp:** Mən Sizinlə həqiqətən fəxr edirəm. Siz çox gözəl insansınız.

Mən bu zalda olan bəzilərinizlə görüşmüşəm, bir çoxunuzu yaxşı tanıyıram. Siz möhtəşəm insanlarsınız. Siz ən yüksək səviyyəli liderlərsiniz. Sizin gördüyünüz işlər möhtəşəmdir. Düşünün, ölkələrinizin milyonlarla əhalisi var və siz bu ölkələrə uğurla rəhbərlik edirsiniz, dünya miqyasında liderlik edirsiniz. Məhz buna görə də buradasınız. Sadəcə demək istəyirəm ki, sizinlə bir yerdə olmaq mənim üçün şərəfdir. Sizinlə əl sıxmağı səbirsizliklə gözləyirəm. Birlikdə bu işlərdən zövq alacağıq. Biz dinc dünyada yaşayacağıq.

**Birinci xanım Melaniya Tramp:** Mən bu gün günorta "Gələcəyi birlikdə qurmaq" adlı möhtəşəm təşəbbüsə ev sahibliyi etdim. Ümid edirəm ki, bütün birinci xanımlar və həyat yoldaşları gələn il birinci rübdə Ağ Evdə mənə qoşulacaqlar və dünyadakı uşaqlar üçün uğur qazanacağıq. Təşəkkür edirəm.

Prezident İlham ƏLİYEV:

## Sülh prosesinə dəstəyinə görə ABŞ Prezidenti Donald Trampa təşəkkür edirəm



Azərbaycan-ABŞ münasibətlərində yeni səhifə açdığına, münasibətləri strateji tərəfdaşlıq səviyyəsinə yüksəltmək qərarına və Azərbaycan ilə Ermənistan arasında sülh prosesinə dəstəyinə görə ABŞ Prezidenti Donald Trampa təşəkkür edirəm.

Azərbaycan yeni bir dövrə qədəm qoyub. Biz həm müharibəni udduq, həm də sülhü qazandıq. İşğala son qoyduq və bərpa işlərinə başladıq. Ədalət zəfər çaldı, suverenlik möhkəmləndi və sülh de-fakto təmin olundu. Biz bu müsbət təcrübəmizi paylaşmağa hazırıq.

Son illərdə əldə etdiyimiz nailiyyətlər yalnız Azərbaycanın qələbəsi və uğuru deyil. Bu, həm də beynəlxalq hüququn sonda mütləq üstünlük təşkil etməsinin sübutudur.

Bizim baxışlarımız aydındır. Bunlar beynəlxalq hüquqa əsaslanan sülh və inkişaf, dövlətlərin daxili işlərinə qarışmama, qarşılıqlı hörmət və əməkdaşlıqdır.

Gəlin, birlikdə ikili standartların aradan qalxdığı, ədalətin selektiv olmadığı, qanunun aliliyinə hörmət edildiyi, sülhün təkcə sözlərlə deyil, əməli addımlarla təmin olunduğu bir dünya quraq.

## Azərbaycan - Ruanda təhsil əməkdaşlığı güclənəcək

**"Məmnunuq ki, Heydər Əliyev Fondunun ölkənizdə təhsil proqramlarını dəstəkləmək şansı oldu"**



Azərbaycan və Ruanda arasında təhsil sahəsində geniş əməkdaşlıq imkanları var. Ruanda Prezidenti Pol Kaqamenin ölkəmizə səfərində digər sahələrdə olduğu kimi, təhsil sahəsində də əlaqələrin prioritetliyindən bəhs olunub.

Prezident İlham Əliyev ruandalı həmkarı ilə görüşündən sonra mətbuata bəyanatında bu məsələyə də toxunub:

"Məmnunuq ki, Heydər Əliyev Fondunun ölkənizdə təhsil proqramlarını dəstəkləmək şansı oldu. Yeri gəlmişkən, düşünürəm ki, bu sahə ikitərəfli münasibətlərimizdə prioritetlərimizdən biri olmalıdır. Mən cənab Prezidentin səfərindən əvvəl bəzi məlumatlara baxdım və gördüm ki, Azərbaycanda Ruandadan cəmi bir tələbə təhsil alır. Hesab edirəm ki, biz tələbələrin sayını artırmaq üçün birgə işləyə bilərik".

Qeyd edək ki, sentyabrın 20-də Azərbaycan Respublikası ilə Ruanda Respublikası arasında imzalanmış sənədlərin Azərbaycan Prezidenti İlham Əliyevin və Ruanda Prezidenti Pol Kaqamenin iştirakı ilə mübadiləsi mərasimi olub. "Azərbaycan Respublikası Hökuməti ilə Ruanda Respublikası Hökuməti arasında hava əlaqəsi haqqında Saziş"i, "Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyi ilə Ruanda Respublikasının Təhsil Nazirliyi arasında təhsil sahəsində əməkdaşlıq haqqında Saziş"i, "Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi ilə Ruanda Respublikasının Kənd Təsərrüfatı və Heyvan Ehtiyatları Nazirliyi arasında Anlaşma Memorandumu"nu Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov və Ruandanın Xarici İşlər Nazirliyinin Regional Əməkdaşlığa məsul Dövlət naziri James Kabarebe mübadilə ediblər.

**Oruc MUSTAFAYEV**

## "Heydər Əliyev adına Beynəlxalq Təhsil Qrantı" proqramı çərçivəsində 51 ölkə üzrə 100 nəfər Azərbaycanda təhsil alacaq

Azərbaycan Respublikası Prezidentinin 8 iyul 2023-cü il tarixli Sərəncamına uyğun olaraq Xarici İşlər Nazirliyi və Elm və Təhsil Nazirliyi tərəfindən birgə icra edilən "Heydər Əliyev adına Beynəlxalq Təhsil Qrantı" proqramının 2025-2026-cı tədris ili üzrə namizədlərin seçimi prosesi başa çatıb. Proqrama müraciət etmiş 64 ölkədən yüzlərlə namizəd sırasından 51 ölkə üzrə 100 nəfər təhsil qrantına layiq görülüb.

Seçilmiş namizədlər, əsasən, ADA Universiteti, Azərbaycan Dövlət Neft və Sənaye Universiteti, Azərbaycan Dövlət İqtisad Universiteti, Bakı Dövlət Universiteti, Bakı Ali Neft Məktəbi, Bakı Mühəndislik Universiteti, Naxçıvan Dövlət Universiteti, Milli Aviasiya Akademiyası və Xəzər Universiteti olmaqla Azərbaycanın 9 ali təhsil müəssisəsində müxtəlif təhsil səviyyələrində təhsil alacaqlar.

Qeyd edək ki, bu proqrama əsasən, İslam Əməkdaşlıq Təşkilatı və Qoşulmama Hərəkatına üzv ölkələr, İnkişaf etməkdə olan Kiçik Ada Dövlətləri qrupuna daxil olan ölkələr və xalqımızla etnik, tarixi və mədəni bağlara malik xalqların və milli azlıqların yaşadığı ölkələrin vətəndaşlarının 5 il ərzində Azərbaycan Respublikasının ali təhsil müəssisələrində müxtəlif təhsil səviyyələri üzrə təhsil almaları nəzərdə tutulub.

Sözügedən proqramın şərtlərinə əsasən, illik əsasda 100, ümumilikdə 500 nəfər xarici ölkə vətəndaşları üçün təhsil qrantının ayrılması nəzərdə tutulur.

# Biz şəhidlərimizi öz qəlbimizdə əbədi saxlayacağıq



Düz bir il bundan əvvəl Ermənistan Azərbaycana qarşı hərbi təxribat törədərək bizim döyüş mövqelərimizi və yaşayış məntəqələrimizi atəşə tutmuşdur. Bu namərd atəş nəticəsində ilk saatlarda mülki şəxslər, hərbçilər həlak olmuşdur. Mənim əmrimlə Azərbaycan Ordusu bu qanlı cinayətə cavab olaraq genişmiqyaslı əks-hücum əməliyyatına başlamış və 44 gün davam edən İkinci Qarabağ müharibəsində tam Qələbə qazanmışdır... İkinci Qarabağ müharibəsində həlak olmuş qəhrəman şəhidlərimizin əziz xatirəsi qarşısında bu gün bir daha baş əyir, onlara Allahdan rəhmət diləyirik. Biz şəhidlərimizi öz qəlbimizdə əbədi saxlayacağıq.

Bu Qələbəni bizə bəxş edən qəhrəman əsgər və zabitlərimiz bizim qürur mənbəyimizdir. Onların qəhrəmanlığı, onların şücaəti, fədakarlığı artıq dastana çevrilib.

Biz bundan sonra qalib ölkə, müzəffər xalq kimi yaşayacağıq və azad edilmiş torpaqları quracağıq, bərpa edəcəyik. O torpaqlara artıq həyat qayıdır, insanlar qayıdır. Bu qayıdışı ən qısa müddət ərzində təmin etmək bu gün bizim başlıca vəzifəmizdir. Öz müraciətimi Qələbəmizin ayrılmaz hissəsi olan sözlərlə tamamlamaq istəyirəm:

"Qarabağ bizimdir!
Qarabağ Azərbaycandır!"

**Müzəffər Ali Baş Komandan, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 27 sentyabr 2021-ci ildə Anım Günü ilə əlaqədar xalqa müraciətindən**

# Sinifdə də, səngərdə də QƏHRƏMAN MÜƏLLİM

## Texnologiya müəlliminin Kəlbəcərlə başlayıb Kəlbəcərdə bitən müharibə yolu



Müharibədən hamımız izlər daşıyırıq, hamımız üçün hər şəhidimiz ağır itkidir. Amma o, hər zaman canlı qalacaq xatirə daşıyır 44 günlük müharibədən. Texnologiya müəllimi Tərlan Fərəcovun 2020-ci il sentyabrin 21-dən başlayan müharibə yolu dekabrın 31-dək davam edib. Kəlbəcərlə başlayıb Kəlbəcərdə bitən müharibə bir gənc müəllimin bədənində deyil, ruhunda ağır yaralar qoyub, dost yarası, silahdaş yarası, elli yarası...

### İmişlidə ilk dərs

Gənc müəllim Tərlan Fərəcov 1995-ci ildə Oğuz rayonunun Tayıflı kəndində anadan olub. Oqtay Xanlarov adına Tayıflı kənd tam orta məktəbinin, Azərbaycan Dövlət Pedaqoji Kollecinin məzunudur. "Texnologiya müəllimliyi" ixtisası üzrə təhsilini tamamlayıb 2019-cu ildə İmişlinin Buludlu kəndində fəaliyyətə başlayıb. İlk dəfə dərsə müəllim kimi kənd məktəbində girib.

### Müəllimin ilk yerdəyişməsi: sinifdən səngərə

Həyatında ilk yerdəyişməni fəaliyyətinin ikinci ilində edib. Müharibə başlayanda onu da çağırıblar və o, sinfi səngərə dəyişib: "Bölüyümüz çox şəhid verib. Rayonumuzdan 5 yoldaşımı itirmişəm müharibədə".

Qələbələrdən ruhlansa da, hər şəhid xəbəri ilə ürəyi dağlanıb, hər dost itkisi acı xatirəyə çevrilib. Müharibə bitəndən sonra öz rayonuna qayıdıb. Müharibədə yaralanmayıb, amma verdiyi itkilərin, itirdiyi dostların, ellilərinin yaralarını ürəyində daşıyır.

### Son yerdəyişmə

Həyat isə davam edir. Tərlan müəllim yenə yerdəyişmə edib, sinifdən sinfə yox, məktəbdən məktəbə də yox, rayondan rayona. İş yerini əvvəlcə Qəbələ, sonra Oğuz məktəbinə dəyişib. Hazırda Oğuz rayon Sincan kənd tam orta məktəbində Texnologiya müəllimidir, özü də döşü medallı müəllim.

Tərlan Fərəcov "Kəlbəcərin azad edilməsinə görə" və "Vətən müharibəsi iştirakçısı" medallarına layiq görülüb.

**Ruhiyyə DAŞSALAHLI**

## Şəhid təhsil işçiləri

Vətən üçün savaşan 700-dək qəhrəman təhsil işçisi. Müharibə zamanı onlardan 20 nəfəri şəhid oldu. Tarixin qürurlu səhifələrində qanla yazılan 5 hərfli söz, dağa dönən ürəklərə zirvə oldu hər biri.




### Zabitlikdən müəllimliyə, müəllimlikdən şəhidliyə ucaldı

*Əvdil Quliyev* 48 illik ömrünü zəhmətlə yaşayıb. Ə.Məmmədov adına Təzəkənd kənd tam orta məktəbində "Gənclərin çağırışaqədərki hazırlığı" fənnini 2018-ci ildən etibarən tədris edən keçmiş zabit müəllim kimi yox, zabit kimi ömrünü başa çatdırıb. Noyabrın 6-da Şuşakənd istiqamətində gedən döyüşlərdə şəhid olub. Şəhid Əvdil Quliyev ölümündən sonra "Vətən uğrunda" və "Şuşanın azad olunmasına görə" medalı ilə təltif olunub.

### Cəbrayıl şəhidləri

*Kənan Müzəffərli* 2019-cu ildən Gədəbəy rayonun Dəyəqarabulaq kənd tam orta məktəbinin müəllimi idi. Həmin il bələdiyyə seçkilərindən sonra Miskinli kənd bələdiyyəsində sədr müavini də oldu. Tezliklə müharibə başladı və o, çağırış alanlardan biri kimi savaşa getdi.

Kənan müəllim oktyabrın 27-də Zəngilan uğrunda gedən döyüşlərdə şəhid oldu. Ölümündən sonra "Vətən uğrunda" və "Cəbrayılın azad olunmasına görə" medalları ilə təltif olunub.

*Tural Rəhimov* Cəlilabad rayonunun Söyüdlü kəndindəndir. 2010-2014-cü illərdə Lənkəran Dövlət Universitetində (LDU) "Kimya-biologiya" ixtisası üzrə təhsil alıb. 2016-cı ildən müəllim olaraq çalışırdı. Tural Rəhimov oktyabrın 22-də Qubadlı döyüşləri zamanı şəhid olub.

Ölümündən sonra "Vətən uğrunda" və "Cəbrayılın azad olunmasına görə", "Qubadlının azad olunmasına görə" medalları ilə təltif olunub.

*Vüqar Vəliyev* Ağdam rayonunun Rzalar kəndində doğulub, Tərtər rayonunun Suqovuşan qəsəbəsində şəhid oldu. Müəllimlərin İşə Qəbulu (MİQ) imtahanında müvəffəqiyyət qazananlardan idi. Quzanlıda yerləşən Ağdam rayon 18 nömrəli köçkün tam orta məktəbinə idman müəllimi kimi qəbul olunmuşdu.

Şəhid Vüqar Vəliyev "Vətən uğrunda" və "Suqovuşanın azad olunmasına görə" medalları ilə təltif edilib.

### Daşaltı şəhidləri

*Rəvan Lətifov* Oğuz rayonunun Xaçmaz kəndində anadan olub. Azərbaycan Dövlət Pedaqoji Universitetinin "Təhsilin təşkili və idarə olunması" ixtisası üzrə təhsil alıb. Ə.Abdulhüseynov adına Sincan kənd tam orta məktəbində məktəbdənkənar və sinifdənxaric tərbiyə işi üzrə təşkilatçı vəzifəsində işləyirdi.

O, noyabrın 6-da Daşaltı-Şuşa istiqamətində gedən döyüşlərdə şəhid olub. Ölümündən sonra "Vətən uğrunda", "Şuşanın azad olunmasına görə" və "Cəsur döyüşçü" medalları ilə təltif olunub.

*Qoşqar Ömərov* Kürdəmir rayonunun Şilyan (Qarasu) kəndində müəllim ailəsində anadan olub. 2018-ci ildə müəllimlərin işə qəbulu müsabiqəsinin imtahan mərhələsində 57 bal toplayaraq Masazır kənd 5 nömrəli tam orta məktəbdə riyaziyyat müəllimliyinə başlayıb. O da Şuşanın Daşaltı kəndi istiqamətində gedən döyüşlərdə şəhid olub.

Şəhid Qoşqar Ömərov ölümündən sonra "Xocavəndin azad olunmasına görə", "Füzulinin azad olunmasına görə", "Şuşanın azad olunmasına görə" və "Vətən uğrunda" medalları ilə təltif olunub.

### İsmayıllının Famil müəllimi Suqovuşan şəhidi oldu

*Famil Əhmədzadə* 1997-ci ildən etibarən məzunu olduğu İsmayıllı şəhər 3 nömrəli məktəb-liseyində tarix müəllimi idi. Vətən müharibəsi könüllülərindən idi. O, Talış və Suqovuşanda gedən döyüşlərdə qəhrəmancasına şəhid olub. Şəhid Famil Əhmədzadə ölümündən sonra "Vətən uğrunda", "Döyüşdə fərqlənməyə görə" medalları ilə təltif edilib.

### Gəncə məktəblərinin müəllimləri idilər

Gəncə şəhərinin qəhrəman oğulları ilə yanaşı, uşaqlarını, şəhərin məktəbləri şagirdlərini - Nigarını, Orxanını, Məryəmini, Arturunu itirdi. Müharibə bitdi - deyiləndə yenicə dərindən nəfəs almışdı, qələbəsinə yenicə sevinmişdi ki, yeni itki xəbərləri ilə yenidən sarsıldı. Şəhər təhsilinin növbəti itkisi müəllimlərdən oldu.

*Rəşad Məmmədov* Gəncə Dövlət Universitetində əvvəlcə bakalavriatura, sonra magistratura təhsili alıb, müəllimlərin işə qəbulu üzrə müsabiqədə 51 bal toplayaraq yaxşı müəllim olacağına dair bir şübhə yeri qoymamışdı.

2018-ci ildə Gəncə şəhəri M.Ş.Vazeh adına 16 nömrəli tam orta məktəbdə işə başlayıb və məktəbin sevimli tarix müəllimi olmuşdu Rəşad Məmmədov. Onun müəllim ömrü 2 il - Azərbaycan Ordusunun Qarabağda əks-hücum əməliyyatlarının başladığı günədək sürüb. Sonra hərbi forma geyinib və müharibəyə qoşulub. Noyabrın 8-də 2020-ci ildə Şuşanın azadlığı uğrunda gedən döyüşlərdə qəhrəmancasına şəhid olub.

Şəhid Rəşad Məmmədov ölümündən sonra "Vətən uğrunda", "Cəsur döyüşçü" və "Şuşanın azad olunmasına görə" medalları ilə təltif olunub.

*Rabil İsmayılov* Gəncə şəhər Mikayıl Müşfiq adına 14 nömrəli tam orta məktəbin müəllimi idi. 2017-ci ildə müəllimlərin işə qəbulu imtahanlarında 55 bal toplayaraq işə qəbul olunmuşdu.

Vətən müharibəsində noyabrın 3-dək davam etdi yolu. Xocavənd döyüşləri zamanı şəhid oldu.

Şəhid Rabil İsmayılov ölümündən sonra "Vətən uğrunda" və "Cəbrayılın azad olunmasına görə", "Xocavəndin azad olunmasına görə" və "Füzulinin azad olunmasına görə" medalları ilə təltif olunub.

*Vidadi İsrafilov* da Gəncə sakini idi. Əslində, Daşkəsənin Gurbulaq kəndində doğulub, elə orada da böyümüşdü. Özünün ilk dəfə parta arxasında oturduğu Gurbulaq kənd tam orta məktəbinin müəllimi idi. Gəncəyə ali təhsil almaq üçün 2005-ci ildə gedib. Gəncə Dövlət Universitetinin Riyaziyyat-informatika fakültəsində təhsil alandan sonra təyinatla kəndinə müəllim olaraq qayıdıb. Ancaq sonrakı illərdə oğlu Ataxanın kəllədaxili təzyiqi onları yüksəklikdə yerləşən Gurbulaqdan dəniz səviyyəsindən aşağıya - Gəncə şəhərinə enməyə məcbur edib. Beləliklə, Gəncə şəhər sakini olub və gəncəli kimi də şəhid olub. Füzuli-Cəbrayıl istiqamətində gedən döyüşlərdə iştirak edib, döyüşə-döyüşə Şuşaya qədər gedib çıxıb. Müharibənin bitməsinə bir neçə saat qalmış şəhid olub.

### Tarix-coğrafiya müəllimi Vətən müharibəsi şəhidi oldu

*Xalid Nəciyev* Saatlıda doğulub. Saatlı şəhərində Səməd Vurğun adına 1 nömrəli tam orta məktəbdə təhsil alıb. 2009-2013-cü illərdə isə Gəncə Dövlət Universitetində (GDU) "Tarix-coğrafiya" ixtisası üzrə ali təhsil alıb. 2017-2018-ci illərdə tarix və coğrafiya müəllimi olub.

O, noyabrın 5-də Laçın döyüşləri zamanı Səfiyan istiqamətində şəhid olub. Şəhid Xalid Nəciyev ölümündən sonra "Döyüşdə fərqlənməyə görə" və "Laçının azad olunmasına görə" medalları ilə təltif olunub.

### Lerikdə qəhrəman müəllimini gözləyən məktəb var

Anasının yeganə oğlu, 3 bacının bir qardaşı *Elgün* də "müəllim" adı qazanıb, amma sinfə girməyə fürsət tapmamışdı. Müəllimlərin işə qəbulu müsabiqəsinin test imtahanı mərhələsində topladığı 52 balla Lerik rayon Sors kənd ümumi orta məktəbində dərs demək hüququ əldə etmişdi.

Elgün Quliyev noyabrın 9-da Şuşa döyüşləri zamanı şəhid olub. "Vətən uğrunda" və "Şuşanın azad olunmasına görə" medalları ilə təltif olunub.

*Elvin İmaməliyev* şəhid olanda əynində hərbi forma olsa da, məktəb direktoru idi. Bu savaşda şəhid olan yeganə məktəb direktoru oldu. Ağstafa rayonunun Qırılı kəndindən olan şəhidimiz 2012-ci ildə müəllimlərin işə qəbulu üzrə imtahanın nəticələrinə əsasən orta təhsil aldığı Ağstafa rayonunun Qırılı kənd tam orta məktəbində müəllim olaraq fəaliyyətə başlamışdı. 2019-cu ildə isə direktorların işə qəbulu üzrə müsabiqədə iştirak edib və yüksək bal toplayaraq Ağstafa şəhəri 1 nömrəli tam orta məktəbə direktor təyin edilmişdi. Elvin İmaməliyev noyabrın 9-da Şuşa döyüşləri zamanı şəhid oldu.

Şəhid Elvin İmaməliyev ölümündən sonra "Vətən uğrunda" və "Şuşanın azad olunmasına görə" medalları ilə təltif olunub.

## Sizi qürurla anırıq

2020-ci ildə analar öz balasını, vətən oğullarını, məktəblər müəllimlərini itirdi. Bəlkə müəllim kimi hədəflərinə nail olmadılar, amma qanları ilə yazılmağında iştirak etdikləri ən müasir Azərbaycan tarixinin hər səhifəsində, hər sətrində məhz onlar qalacaqlar!

Əmanət etdikləri bayrağı ötürəcək məktəblilər həmişə olacaq. Bayrağımız dalğalandıqca, onlar da yaşayacaqlar!

Bu gün şəhid müəllimlərimizi, sadəcə doğmaları yox, məktəbi, dərs dediyi şagirdləri və doğulduğu kəndlər, bütün Azərbaycan qürurla anır.

Ruhunuz şad olsun!

**Ruhiyyə DAŞSALAHLI**

# "Azərbaycan - Türkiyə təhsil əlaqələri yüksək səviyyədədir"

## Türkiyənin milli təhsil naziri Qarabağda səfərdə olub





### Yusuf Tekin Şuşa, Füzuli və Ağdam məktəblərini ziyarət edib

Türkiyə Respublikasının milli təhsil naziri Yusuf Tekinin rəhbərlik etdiyi nümayəndə heyəti ölkəmizə səfəri çərçivəsində elm və təhsil naziri Emin Əmrullayevlə birgə işğaldan azad edilmiş ərazilərdə olub.

Nümayəndə heyəti səfər çərçivəsində Şuşa şəhər 1 nömrəli, Füzuli şəhəri Mirzə Uluqbəy adına 1 nömrəli və Ağdam şəhəri 1 nömrəli tam orta məktəbləri ziyarət edərək bu təhsil ocaqlarında yaradılmış müasir tədris mühiti ilə yaxından tanış olub.

Yusuf Tekin Qarabağın sürətli bərpa və yenidənqurma prosesinin bir hissəsi kimi müasir təhsil infrastrukturunun qısa müddətdə təkmilləşdirilməsini yüksək qiymətləndirib. O, Şuşa, Füzuli və Ağdam məktəblərində şagirdlər üçün yaradılmış müasir şəraitin Azərbaycanın gələcək nəsillərinin yüksək bilik və bacarıqlara yiyələnməsinə xidmət etdiyini xüsusilə vurğulayıb.

## Qarabağda Azərbaycan və Türkiyə arasında təhsil sahəsində sazişlər imzalanıb






### İki qardaş ölkə arasında mövcud əməkdaşlıq genişləndirilir

Sentyabrın 23-də Türkiyə Respublikasının milli təhsil naziri Yusuf Tekinin rəhbərlik etdiyi nümayəndə heyəti Qarabağ Universitetinə rəsmi səfər edib. Səfər çərçivəsində nazir universitetin tədris mühiti və yaradılmış müasir infrastrukturu ilə yaxından tanış olub.

Səfərin davamında elm və təhsil naziri Emin Əmrullayev ilə Türkiyə Respublikasının milli təhsil naziri Yusuf Tekin arasında ikitərəfli görüş keçirilib. Görüş zamanı iki ölkə arasında mövcud əməkdaşlığın genişləndirilməsi məqsədilə "Azərbaycan Respublikası Hökuməti ilə Türkiyə Respublikası Hökuməti arasında təhsil sahəsində əməkdaşlıq haqqında 2017-ci il 31 oktyabr tarixli Sazişə Əlavə Protokol" və "Azərbaycan Respublikası Hökuməti ilə Türkiyə Respublikası Hökuməti arasında peşə təhsili sahəsində əməkdaşlığa dair 2021-ci il 19 fevral tarixli Protokola Əlavə Protokol"un imzalanması mərasimi baş tutub.

Sözügedən sənədlərin imzalanması iki qardaş ölkə arasında təhsil sahəsində birgə layihələrin daha da inkişafına möhkəm zəmin yaradacaq.

## İlk dəfə Azərbaycandan kənarda fəaliyyət göstərəcək Azərbaycan məktəbi modelini həyata keçirəcəyik








**Emin ƏMRULLAYEV:**

"Azərbaycan-Türkiyə təhsil əlaqələri bu gün nümunəvi səviyyədədir. 1990-cı illərdən bu yana gənclərimizin Türkiyədə təhsil alması ölkəmizin inkişafına töhfə verib. Ötən il açılışı baş tutan Türkiyə-Azərbaycan Universiteti Azərbaycan və Türkiyə dövlət başçılarının Azərbaycan gənclərinə böyük bir hədiyyəsidir. Türkiyənin aparıcı üç universitetinin Azərbaycanda fəaliyyətə başlaması və onların diplomlarının verilməsi Azərbaycan gəncləri üçün olduqca böyük bir imkandır".

"Azərbaycan-Türkiyə təhsil əlaqələrinin genişlənməsi çərçivəsində İstanbulda fəaliyyət göstərəcək Azərbaycan məktəbi həm orada yaşayan soydaşlarımızın uşaqlarının ana dilində və milli ruhda təhsil almasına, həm də iki ölkə arasında təhsil əməkdaşlığının daha da güclənməsinə xidmət edəcək. Bu imkan iki qardaş ölkə arasında təhsil əməkdaşlığının daha da möhkəmlənməsi baxımından mühüm əhəmiyyət daşıyır. Bu, bizim üçün bir ilk olacaq. Təcrübəmizdə ilk dəfə Azərbaycandan kənarda fəaliyyət göstərəcək Azərbaycan məktəbi modelini həyata keçirəcəyik. Eyni zamanda düşünürəm ki, bu məktəb İstanbulda işləyən və ya digər səbəblərlə yaşayan Azərbaycan vətəndaşları üçün də əhəmiyyətli fürsət yaradacaq. Bu baxımdan bu layihə Azərbaycan və Türkiyə təhsil sistemləri arasındakı dostluğu daha da möhkəmləndirəcək. Məktəbdə Türkiyə və Azərbaycan tədrisi məzmunundan istifadə olunacaq".

### Elm və təhsil naziri Bakı Türk Anadolu Liseyinin yeni binasının açılış mərasimində iştirak edib

Sentyabrın 22-də elm və təhsil naziri Emin Əmrullayev ilə Türkiyə Respublikasının milli təhsil naziri Yusuf Tekin Bakı Türk Anadolu Liseyinin yeni binasının açılış mərasimində iştirak edib.

Tədbir Azərbaycan və Türkiyə Respublikasının Dövlət himnlərinin səsləndirilməsi ilə başlayıb və ardınca milli folklor proqramı təqdim edilib.

Türkiyə Respublikasının ölkəmizdəki fövqəladə və səlahiyyətli səfiri Birol Akgün çıxışında Azərbaycan—Türkiyə münasibətlərinin qardaşlıq prinsiplərinə əsaslandığını vurğulayıb, iki ölkə arasında təhsil sahəsində əməkdaşlığın uzunmüddətli perspektivdə regionun intellektual inkişafına mühüm töhfə verdiyini qeyd edib. Səfir yeni tədris binasının istifadəyə verilməsini bu strateji əməkdaşlığın bariz nümunəsi kimi dəyərləndirib.

Türkiyə Respublikasının milli təhsil naziri Yusuf Tekin çıxışında təhsilin xalqlar arasında birliyi gücləndirən ən vacib amillərdən biri olduğunu bildirərək Azərbaycan və Türkiyənin birgə təhsil layihələrinin davamlı şəkildə genişləndiyini diqqətə çatdırıb. Nazir gənclərin müasir bilik və bacarıqlara yiyələnməsini dəstəkləyən birgə proqramların gələcəkdə daha da inkişaf etdiriləcəyini deyib.

Azərbaycan Respublikasının elm və təhsil naziri Emin Əmrullayev isə çıxışında iki ölkə arasında təhsil sahəsində qarşılıqlı etimad və dəstəyin ildən-ilə gücləndiyini qeyd edib, Bakı Türk Anadolu Liseyinin yeni binasının bu əməkdaşlığın davamlı xarakter daşıdığını göstərən mühüm bir addım olduğunu bildirib. Nazir hər iki ölkə başçısının elm və təhsil sahəsində əməkdaşlığın inkişafına verdikləri dəstəyi xüsusi vurğulayıb.

Mərasim çərçivəsində xatirə ağacı əkilib, simvolik lentkəsmə mərasimi baş tutub və qonaqlar yeni tədris binası ilə yaxından tanış olublar.

**Yetər KƏRİMLİ**

# Daha çox kəmiyyətə deyil, keyfiyyətə diqqət ayırmalıyıq

## "THE Avrasiya Universitetləri Sammiti" keçirilib









**Sentyabrın 24-də Elm və Təhsil Nazirliyinin dəstəyi, Elm və Ali Təhsil üzrə Dövlət Agentliyi və "Times Higher Education" (THE) beynəlxalq reytinq agentliyinin birgə təşkilatçılığı ilə "THE Avrasiya Universitetləri Sammiti"nin açılış mərasimi keçirilib.**

Elm və təhsil naziri Emin Əmrullayev çıxışında sammitin Bakıda keçirilməsindən məmnunluğunu ifadə edib. Nazir ali təhsilin əsas missiyasının insan kapitalının inkişafı və cəmiyyət üçün əlavə dəyərin yaradılması olduğunu vurğulayıb, həmçinin ali təhsilin əlçatanlığı, keyfiyyət və kəmiyyət arasında balansın qorunması, beynəlxalq tələbə mübadiləsində ədalətli yanaşma və sosial bərabərliyin təmin olunması kimi məsələlərin müzakirə olunmasının vacibliyini bildirib.

Emin Əmrullayev xarici universitetlər və institutlar arasında əməkdaşlığın əhəmiyyətini nəzərə çatdıraraq Avrasiya kimi önəmli regionda elmi araşdırmaların aparılmasının faydalılığı və Dayanıqlı İnkişaf Məqsədlərinə töhfə verə biləcəyini qeyd edib. Çıxışının sonunda nazir sammitin əməkdaşlıq və yeni ideyalar üçün mühüm əhəmiyyətini qeyd edib.

"Times Higher Education" beynəlxalq reytinq agentliyinin qlobal məsələlər üzrə baş direktoru Fil Bati Azərbaycanın elm və təhsil sahəsində beynəlxalq əməkdaşlıq üçün unikal platforma yaratdığını bildirib. Eyni zamanda 2026-cı ildə açıqlanacaq dünya universitetləri reytinqində Azərbaycan universitetlərinin sayının əvvəlki illə müqayisədə iki dəfə artaraq 4-ə çatacağını deyib.

Sammitdə çıxış edən Con fon Neyman Universitetinin Müşahidə Şurasının sədri Norbert Csizmadia isə universitetlər, sənaye və hökumətlərin birgə fəaliyyətinin qlobal problemlərə cavab verən dinamik tədqiqat ekosistemləri yaratmaq baxımından əhəmiyyətini vurğulayıb. O, transmilli tədqiqatın biliklərə ədalətli çıxış və yeni həllərin tapılmasına mühüm töhfə verəcəyini qeyd edib.

Sammitin birinci günündə transmilli tədqiqatların qlobal təsiri, ali təhsilin Dayanıqlı İnkişaf Məqsədlərinə töhfəsi, Avrasiya universitetləri arasında əməkdaşlıq imkanları və beynəlxalq tələbə mobilliyi mövzularında panel müzakirələri aparılıb.

Qeyd edək ki, panel müzakirələrlə davam edən "THE Avrasiya Universitetləri Sammiti" 24-25 sentyabr tarixlərini əhatə edib.



### Emin ƏMRULLAYEV:

"Ötən illərdə xaricdə təhsil almaq üçün müraciət edən azərbaycanlı tələbələrin sayı artıb. Dünyanın nüfuzlu universitetlərində oxuyan tələbələrimizin sayı olduqca çoxdur. Ölkəmizdə universitet məzunlarının sayı demək olar ki, maksimum səviyyədədir. Bəzi sosial göstəricilər də göstərir ki, tələbələrimizin çoxu nüfuzlu xarici universitetlərdə təhsil almaq istəyir. Hesab edirəm ki, tələbə mübadiləsini artırmalıyıq. Bu, xüsusilə kiçik ölkələrə yardım edəcək. Burada bir çox çağırışlara əsasən gedən və qayıdan tələbələrin sayında balansı qorumalıyıq. Daha çox kəmiyyətə deyil, keyfiyyətə diqqət ayırmalıyıq".

"Son on ildə universitetlərə qəbul plan yerləri demək olar ki, iki dəfə artırılıb, bu isə təhsilə çıxış imkanlarını genişləndirib, eyni zamanda keyfiyyət və ədalət məsələlərini aktuallaşdırıb. Ali təhsildə əsas sual hələ də kimin bu imkana sahib olacağıdır. Biz deyə bilərik ki, hər kəs ali təhsil ala bilər, amma bunun üçün müəyyən meyarlar olmalıdır. Yalnız müəyyən bacarıq və qabiliyyətlərə malik şəxslərə üstünlük verilməsi və ya ali təhsili sırf fərdi iqtisadi seçim kimi dəyərləndirərək, hər kəsin öz qərarına buraxmaq".

### Fil BATİ:

"Artıq Avrasiya regionunda mühüm araşdırmalar aparmaq üçün infrastruktur və şərait yaradılıb. Bu region Qərblə Şərqin birləşdiyi yerdə yerləşdiyi üçün coğrafi cəhətdən çox mühümdür. Tarixən də bu coğrafiya həm ticarət, həm elm, həm də mədəniyyətlərarası mübadilə üçün əhəmiyyətli rol oynayıb. Müasir dövrdə isə Avrasiya regionu araşdırmalar və innovasiyalar baxımından mühüm rol oynayacaq. Azərbaycan Qafqaz və Mərkəzi Asiya regionunda liderlik rolu oynayır. Hər il daha çox Azərbaycan universiteti beynəlxalq reytinq siyahılarında yer alır".

## "Dayanıqlılıq hər bir universitetin strateji planlaşdırmasının rutin elementi olmalıdır"

### Rüfət ƏZİZOV:



"Dayanıqlılıq iqlim dəyişikliyi, yeni və alternativ enerji mənbələri də daxil olmaqla, universitetin əsas strategiyasının bir hissəsi olmalıdır. Bu il beynəlxalq reytinqlərində Azərbaycanın 28 universiteti yer alıb. Azərbaycanda yalnız 52 universitet olduğu halda, yarıdan çoxu reytingə daxil edilib. Qazaxıstandan 36 və Özbəkistandan 59 universitet reytinqə daxil edilib. Bu bölgədə dayanıqlılıq və iqlim dəyişikliyi getdikcə daha vacib mövzuya çevrilir. Əslində, müasir dünyamızda İT texnologiyaları artıq müxtəlif mexaniki, fiziki və bioloji sistemlərdə, eləcə də təhsilin bütün məzmununda tətbiq edilməyə başlanılıb. Bu il Strasburq Universiteti ilə birlikdə Su İdarəetmə Resursları üzrə magistratura proqramına başladıq. Bu həmçinin ikili diplom proqramıdır. Bunlar proqram əsaslı uğurlu nümunələr olsa da, dayanıqlılıq hər bir universitetin strateji planlaşdırmasının rutin elementi olmalıdır".

## "Ortaq dəyər və maraqların formalaşması üçün müxtəlif aktorların daha həssas olması mümkündür"

### Olgun ÇİÇEK:



"Reytinqlər ali təhsil sahəsində dominant olsa da, bir çox iştirakçılar daha ədalətli, dayanıqlı və əməkdaşlıq yönümlü yanaşmaların vacibliyini vurğulayırlar. Ortaq dəyər və maraqların formalaşması üçün müxtəlif aktorların daha həssas olması mümkündür. Bunun üçün ortaq məqsədlər ətrafında dialoqların qurulması, rəqabətdən əməkdaşlığa keçid və bilik mübadiləsinin təşviqi vacibdir. Beləliklə, fərqlilik aktorların rollarından irəli gəlsə də, cavabdehlik yalnız daha geniş məqsədlər ətrafında birləşdikdə güclənir. Vəziyyət yaxşılaşır, amma biz hələ infrastruktur, qiymətləndirmə meyarları və standartlar baxımından tam hazır deyilik, bunu agentlik perspektivindən deyirəm. Lakin bizim institutlarımız haqqında danışsaq, onlar çox yaxşı iş görürlər, həm də bunu praktikada tətbiq edirlər".

## "Dövlət ali təhsilin qadınlar üçün daha əlçatan olması üçün böyük səylər göstərir"

### Bahodir ƏHMƏDOV:



"Özbəkistanda bütün qadınların magistr və doktorantura pillələrində təhsil xərclərinin dövlət tərəfindən ödənilməsi ilə bağlı təşəbbüs nəzərdən keçirilir. Bu, böyük bir addımdır, çünki məlum olub ki, universitetlərə gedən qadınların sayı adətən kişilərdən azdır. Qadınların payı təxminən 40-45% ikən, kişilərin payı 60% təşkil edir. Lakin magistr və doktorantura səviyyələrində qadınların payı təxminən 20%-dir. Dövlət ali təhsilin qadınlar üçün daha əlçatan olması üçün böyük səylər göstərir və bütün doktorantura xərclərini qarşılayır. Ümid edirik ki, bu təşəbbüs daha çox qadının yüksək akademik dərəcələrə yiyələnməsinə təkan verəcək".

**Yetər KƏRİMLİ**

# Elm və təhsil naziri Macarıstanın mədəniyyət və innovasiya naziri Balazs Hanko ilə görüşüb




Sentyabrın 24-də elm və təhsil naziri Emin Əmrullayev ölkəmizdə səfərdə olan Macarıstan Respublikasının mədəniyyət və innovasiya naziri Balazs Hanko ilə görüşüb. Görüş çərçivəsində iki ölkə arasında elm və təhsil sahəsində cari əməkdaşlıq və inkişaf perspektivləri müzakirə edilib.



## Elm və təhsil nazirinin Gədəbəydəki vətəndaş qəbulu ilə bağlı

## MƏLUMAT

Elm və təhsil naziri Emin Əmrullayevin 26 sentyabr tarixində Gədəbəy şəhərində keçirilməsi nəzərdə tutulan vətəndaş qəbulunun vaxtı dəyişdirilib. Qəbulun tarixi barədə əlavə məlumat veriləcək.

Qəbulda Gədəbəy, Şəmkir, Tovuz, Ağstafa, Qazax sakinlərinin iştirakı nəzərdə tutulub.

Qeyd edək ki, qəbulda yalnız müvafiq qaydada müraciət etmiş şəxslər iştirak edəcəklər.

# Daha təhsilli gələcək

## Təhsildə Yeni Çağırışlar VI Beynəlxalq Forumu keçiriləcək




Oktyabrın 4-də Bakı Slavyan Universitetində Təhsildə Yeni Çağırışlar VI Beynəlxalq Forumu keçiriləcək.

Beynəlxalq Forum Elm və Təhsil Nazirliyi, Təhsilin İnkişafı Fondu, Elm və Təhsil İşçiləri Azad Həmkarlar İttifaqı Respublika Komitəsinin tərəfdaşlığı, Bakı Slavyan Universiteti və "T-Network" təhsil işçilərinin təcrübə və kommunikasiya platformasının təşkilatçılığı ilə hibrid formada reallaşacaq.

Forumun keçirilməsində əsas məqsəd təhsildə yeni çağırışları müzakirə etmək, hər kəs üçün keyfiyyətli təhsil, xarakter və iradə tərbiyəsi, emosional və süni zəkanın balansı məsələlərinə diqqəti artırmaq, yeni dövrün təhsil tələblərini nəzərdən keçirərək keyfiyyətin daha da yüksəldilməsinə töhfə verməkdir.

"Konstitusiya və Suverenlik İli"nə həsr edilən Beynəlxalq Forum "Daha təhsilli gələcək" devizi ilə reallaşacaq.

Forumda İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatının təhsil və bacarıqlar üzrə direktoru Andreas Şleyxer, Baltaş Qrupun rəhbəri, tanınmış türkiyəli psixoloq Acar Baltaş, Britaniya Təhsil Təchizatçıları Assosiasiyasının baş direktoru Kəralayn Rayt, Riqa Klassik Dövlət Gimnaziyasının direktoru Roman Əliyev, Baltaş Qrupunun qurucusu, tanınmış türkiyəli psixoloq Zuhal Baltaş, xaricdə təhsil üzrə Dövlət Proqramı çərçivəsində Harvard Universitetində təhsilin siyasəti və təhlili üzrə magistratura təhsili almış Lalə Əliyeva, Estoniya Karyera Təhsil Akademiyasının rəhbəri Sənəm Əli təqdimatlarla çıxış edərək öz təcrübələrini bölüşəcəklər.

Forum "Emosional və süni zəkanın balansı, hər kəs üçün keyfiyyətli təhsil, sürət dövrü: xarakter və iradə tərbiyəsi, təcili təhsil yardımı: çoxnövlü savadlılıq" mövzularını əhatə edəcək.

Forum çərçivəsində "Təhsildə emosional və süni zəkanın balansı necə tənzimlənməlidir? Necə edək ki, keyfiyyətli təhsil hər kəs üçün əlçatan olsun və heç bir təhsilalan kənarda qalmasın? Sürət dövründə xarakter və iradə tərbiyəsinə diqqəti necə artıra bilərik? Bu kontekstdə hansı ənənəvi yanaşmalar yeni yanaşmalarla əvəzlənməlidir? Təhsil prosesinin iştirakçıları hansı uğur anlayışına köklənməlidirlər? Təcili təhsil yardımını təmin olunması və çoxnövlü savadlılığın təşviq edilməsi üçün hansı addımların atılmasına ehtiyac var? Təhsil prosesinin bütün tərəflərini özünün ən yaxşı versiyası olmaq prosesinə necə cəlb etmək olar?" sualları ətrafında müzakirələr aparılacaq.

# 7 azərbaycanlı tələbə Küveyt Universitetində təhsil almaq hüququ qazanıb

2025/2026-cı tədris ilində Küveyt Dövlətinin ayırdığı təqaüd proqramı çərçivəsində 7 nəfər Azərbaycan Respublikası vətəndaşı Küveyt Universitetində təhsil almaq hüququ qazanıb.

Elm və Ali Təhsil üzrə Dövlət Agentliyindən "Azərbaycan müəllimi"nə bildirilib ki, yekun qərar nəticəsində seçilən tələbələr universitetin Dillər Mərkəzində birillik ərəb dili üzrə təkmilləşdirmə kursuna cəlb olunacaqlar.

Qeyd edək ki, təqaüd çərçivəsində tələbələrin təhsil, yaşayış və beynəlxalq nəqliyyat xərcləri tam şəkildə Küveyt Dövləti tərəfindən ödəniləcək.

# Universitetlərarası əməkdaşlıq, ali təhsil sahəsində inkişaf perspektivləri müzakirə edilib

## Nazir müavini İğdır Azərbaycan Evi rəhbərinin rəhbərlik etdiyi nümayəndə heyəti və Doğu Akdeniz Universitetinin rektoru ilə görüşüb




Sentyabrın 24-də elm və təhsil nazirinin müavini Həsən Həsənli İğdır Azərbaycan Evinin rəhbəri Ziya Zakir Acar, eləcə də Artvin, Ağrı, Ardahan, Bolu, Qars, İğdır, Ərzurum və Van universitetlərinin rektorları ilə görüşüb.

Görüş çərçivəsində ölkələrimiz arasında universitetlərarası əməkdaşlıq, o cümlədən ali təhsil sahəsində cari inkişaf perspektivləri müzakirə edilib.

***

Sentyabrın 25-də elm və təhsil nazirinin müavini Həsən Həsənli Doğu Akdeniz Universitetinin rektoru Hasan Kılıç ilə görüşüb.

Görüş çərçivəsində ölkələr arasında universitetlərarası əməkdaşlıq, o cümlədən ali təhsil sahəsində Doğu Akdeniz Universiteti ilə inkişaf perspektivləri müzakirə edilib.



# BMU tələbələrinin hazırladığı PUA beynəlxalq forumda nümayiş olunub




Bakı Mühəndislik Universitetinin (BMU) Texnoparkı Azərbaycan Respublikası Prezidenti İlham Əliyevin himayəsi ilə "Sea Breeze" şəhər kompleksində keçirilən 1-ci Azərbaycan Beynəlxalq İnvestisiya Forumunda təmsil olunub.

Dövlət rəsmiləri, biznes liderləri və beynəlxalq investorların iştirak etdiyi ikigünlük forum müxtəlif ölkələrin investisiya imkanlarını araşdırmaq, qlobal ticarətin və dayanıqlı təchizat zəncirlərinin gələcəyini formalaşdırmaq məqsədi daşıyıb. Tədbir çərçivəsində plenar iclaslar, institusional və panel sessiyalar təşkil olunub, ölkəmizin investisiya imkanları və potensialına dair sərgi keçirilib.

Sərgidə BMU-nun Mexanika mühəndisliyi laboratoriyalarının müdiri Rüstəm Kələntərovun mentorluğu və rəhbərliyi ilə universitetin tələbələri tərəfindən hazırlanmış "Zəngəzur" PUA-sı da nümayiş olunub. Kənd Təsərrüfatı Nazirliyinin Aqrar İnnovasiyalar Mərkəzinin yaxından dəstəyi ilə iştirakçılara təqdim edilən və maraqla qarşılanan PUA-nın texniki imkanları, radioekoloji monitorinq əməliyyatlar həyata keçirmək baxımından üstünlükləri diqqətə çatdırılıb.

# TİF və TKTA 103 DP qalibinin IELTS imtahan xərcini qarşılayıb

## Məqsəd gənclərin xarici dil bacarıqlarını inkişaf etdirmək və beynəlxalq təhsil imkanlarına çıxışlarını genişləndirməkdir




Təhsilin İnkişafı Fondunun (TİF) Təhsildə Keyfiyyət Təminatı Agentliyi (TKTA) ilə birgə həyata keçirdiyi "IELTS imtahanına təşviq" layihəsi çərçivəsində Fondun dəstəyi ilə imtahan ödənişləri qarşılanmış 103 gənc Dövlət Proqramının (DP) qalibi olub.

Bu barədə "Azərbaycan müəllimi"nə TİF-dən məlumat verilib. Bildirilib ki, qaliblər bakalavriat, magistratura və doktorantura səviyyələrində müxtəlif ixtisaslar üzrə dünyanın nüfuzlu ali təhsil müəssisələrində təhsillərini davam etdirəcəklər.

Bu təşəbbüs gənclərin xarici dil bacarıqlarının inkişaf etdirilməsi və beynəlxalq təhsil imkanlarına çıxışlarının genişləndirilməsi məqsədini daşıyır.



# Oksford "Executive MBA" proqramının iştirakçıları ADNSU tələbələri ilə görüşüb

Oksford Universitetinin "Executive MBA" proqramının iştirakçıları olan, uğurlu karyeraya sahib peşəkarların və sənaye rəhbərlərinin iştirakı ilə ADNSU tələbələri üçün karyera inkişafı, liderlik və idarəetmə mövzusunda panel müzakirəsi keçirilib.

Universitetin rektoru, dosent Rüfət Əzizovla keçirilən görüş zamanı qonaqlarla – "Polestar Automotive" şirkətində Qlobal satınalmalar üzrə icraçı vitse-prezident və rəhbər Frida Ying He, unicorn startaplarla çalışan Qlobal Süni İntellekt GTM və Tərəfdaşlıq lideri Mariya Nunez Burxalter, təcrübəli sahibkarlıq siyasəti mütəxəssisi Şeril Lo, SOCAR-ın səhmdar nümayəndəsi Rüstəm Əliyev və UBOC-un Baş Meneceri Elxan Bəşirovla geniş fikir mübadiləsi aparılıb.

Rektor qonaqlara ADNSU-nun tarixi, inkişaf istiqamətləri, beynəlxalq əlaqələri və həyata keçirilən müasir layihələr barədə ətraflı məlumat verib. Qeyd olunub ki, universitetdə tələbələrin praktik bacarıqlarının artırılması, müasir təhsil metodlarının tətbiqi, tədqiqat və innovasiya yönümlü proqramların həyata keçirilməsi prioritet istiqamətlərdəndir.

Rəsmi hissədən sonra universitetin professor-müəllim heyətinin və tələbələrin iştirakı ilə panel müzakirə keçirilib. Təcrübəli mütəxəssislər karyera inkişafı, liderlik və idarəetmə mövzularında panel müzakirəsi aparıblar. Onlar öz zəngin təcrübələrini iştirakçılarla bölüşüblər və tələbələrin suallarını cavablandırıblar.

Qonaqlar ADNSU-da yaradılmış Azərbaycan-Türkiyə Dostluq Mərkəzində, Rəqəmsal Energetika, Kibertəhlükəsizlik laboratoriyalarında, həmçinin Tarix və Minerologiya muzeylərində olublar. Universitetin elmi mühiti, laboratoriyaları və tədris imkanları ilə tanış olan qonaqlar ADNSU-nun tədris imkanlarını yüksək qiymətləndiriblər.

# Türkiyəli tarixçi alim NDU-da olub



Sentyabrın 23-də tanınmış tarixçi alim, yazıçı İlber Ortaylı Naxçıvan Dövlət Universitetində olub.

Elm xadimi İlber Ortaylının iştirakı ilə universitetin İncəsənət fakültəsinin sərgi salonunda müəllim və tələbələrin əl işlərindən ibarət sərgiyə baxış olub.

Görüşdə universitetin rektoru Elbrus İsayev professor İlber Ortaylını ali təhsil ocağında görməkdən məmnunluğunu ifadə edib. Rektor qeyd edib ki, Naxçıvan Dövlət Universitetinin tarixi Ulu Öndər Heydər Əliyevin adı ilə bağlıdır və bu gün də Ümummilli Liderin ideyalarını yaşadan dövlətçilik universitetidir. Rektor ali təhsil ocağının qardaş Türkiyə universitetləri ilə qurulan əməkdaşlıq əlaqələrindən bəhs edib. Vurğulayıb ki, Türkiyənin 80 universiteti ilə birbaşa əlaqələr var və hazırda 1500-dən artıq türkiyəli tələbə təhsil alır.

Elbrus İsayev universitetdə konservatoriyanın yaradılmasının da məhz dahi şəxsiyyət Heydər Əliyevin imzası ilə reallaşdığını qeyd edib. Bu gün İncəsənət fakültəsinin öz çoxşaxəli tədris proqramı ilə kadr hazırlığında özünəməxsus yeri var. Rektor rəhbərlik etdiyi ali təhsil ocağının incəsənət kollektivləri sırasında universitetin 150 nəfərlik simfonik orkestri, Tələbə Teatr Studiyası, "Qədim Xalq Çalğı Alətləri" ansamblı olduğunu bildirib. Qeyd edib ki, simfonik orkestr Azərbaycan ali məktəbləri arasında yaradılan ilk musiqi kollektividir.

İlber Ortaylı universitetin konservatoriyası ilə yaxından tanış olub, müəllim və tələbələrlə görüşüb. Naxçıvan Dövlət Universitetinin Orkestr alətləri və dirijorluq kafedrasının professoru Azərbaycan Respublikasının Xalq artisti Çingiz Axundovun dərsində iştirak edən tarixçi-alim tələbələrin ifasında dünyaşöhrətli Azərbaycan musiqiçisi Müslüm Maqomayevin "Azərbaycan" mahnısını heyranlıqla dinləyib. Professor ali təhsil ocağında görüşün yaddaqalan olduğunu qeyd edib, starteji coğrafi mövqedə yerləşən Naxçıvanda konservatoriyası, simfonik orkestri olan Naxçıvan Dövlət Universitetində mənəvi dəyərlərin qorunması və yaşadılması yönündə fəaliyyəti yüksək dəyərləndirib. Tanınmış alim İncəsənət fakültəsində Türkiyənin bir çox bölgəsindən tələbələrin təhsil aldığını və bu sayın artacağına əminliyini ifadə edib.

Qeyd edək ki, tanınmış türkiyəli tarixçi-alim, Türk Tarix Qurumunun fəxri üzvü, yazıçı İlbər Ortaylı Naxçıvan Dövlət Universitetinin təşkilatçılığı və dəvəti ilə 20-23 sentyabr tarixlərində Naxçıvanda səfərdə olub.

# SABAH məzunu Avropanın nüfuzlu universitetlərinin birgə doktorantura proqramına qəbul olub



SABAH qrupları Azərbaycan Memarlıq və İnşaat Universitetinin (AzMİU) "Memarlıq" ixtisasının 2017-ci il məzunu Sona Məmmədzadə "Davamlılıq üçün enerji" (Energy for Sustainability) təşəbbüsü çərçivəsində Portuqaliyada Koimbra Universiteti, Lisbon Universiteti və Porto Universitetinin "Joint PhD" Davamlı Enerji Sistemləri doktorantura proqramına qəbul olub.

S.Məmmədzadə paralel olaraq, Koimbra Universitetinin Mexanika mühəndisliyi fakültəsində elmi əməkdaş kimi çalışır.

Qeyd edək ki, SABAH məzunu magistratura səviyyəsi üzrə 2022-ci ildə BMT-nin Davamlı İnkişaf Məqsədlərindən biri olan "Davamlı şəhərlər və icmalar" mövzusuna həsr olunmuş EC2U (European Campus of City-Universities) "Joint Master's" proqramı çərçivəsində hər semestr fərqli bir universitetdə təhsil alıb: Portuqaliyada Koimbra Universiteti, Finlandiyada Turku Universiteti, Fransada Poitiers Universiteti və İtaliyada Pavia Universiteti. 2024-cü ildə magistratura təhsilini fərqlənmə ilə başa vuraraq Fransa və Finlandiyadan iki diplom əldə edib, həmçinin Poitiers Universitetinin "2024 Master Medal" mükafatına layiq görülüb.

# "Almaniya Təhsil və Tədqiqat Nazirliyinin iki layihəsi üzərində işləyirəm"

Son illərdə dünyanın nüfuzlu ali təhsil müəssisələrində elmi-pedaqoji, tədqiqatçılıq fəaliyyətlərində ciddi uğurları ilə diqqəti cəlb edən gənclərimizin sıraları genişlənməkdədir. Gənclər həm ali təhsilin müvafiq səviyyələrində akademik biliklərini artıraraq peşəkarlar kimi yetişir, həm də tədqiqatçılıq fəaliyyətləri ilə məşğul olurlar. Belə gənclərdən biri – hazırda Almaniyada kompüter elmləri, süni intellekt və tətbiqləri, açıq tədris resursları üzrə doktorantura təhsili alan Şəhla Məcid qızı Rəsulzadə ilə həmsöhbət olduq.



## Şəhla RƏSULZADƏ:

## *"Süni intellekt öyrənməni fərdiləşdirmək, inklüzivliyi artırmaq, əlçatanlığı asanlaşdırmaq, müəllimləri ağıllı sistemlərlə dəstəkləmək üçün çoxlu imkanlar təklif edir"*

**TANITIM**

Şəhla Məcid qızı Rəsulzadə 1988-ci ildə Bakı şəhərində ziyalı ailəsində anadan olub. 2005-ci ildə Bakı şəhəri 279 nömrəli tam orta məktəbi bitirib. Daha sonra Bakı Dövlət Universitetinin Mexanika-riyaziyyat fakültəsində bakalavr, Azərbaycan Dövlət Pedaqoji Universitetində isə "Hesablama riyaziyyatı və informatika" ixtisası üzrə magistr təhsili alıb. 2011-ci ildən ADPU-nun eyniadlı kafedrasında müəllim kimi çalışıb.

2018-ci ildə kompüter elmləri üzrə təhsilini Almaniyanın Passau Universitetində davam etdirib. Daha sonra Kassel Universitetinin Elektrik mühəndisliyi və Kompüter elmləri fakültəsində elmi-tədqiqatçı kimi akademik fəaliyyətə başlayıb və orada kriptoqrafiya mühəndisliyi ("Cryptography Engineering"), avtomat nəzəriyyəsi və formal dillər ("Automata theory and formal languages", ağıllı quraşdırılmış sistemlər ("Intelligent Embedded Systems") fənlərini tədris edib.

2023-cü ildən Frankfurt şəhərində DIPF (Leibniz-Institut für Bildungsforschung und Bildungsinformation) Elmi Araşdırmaları İnstitutunda Kompüter Elmləri Departamentində elmi-tədqiqatçı olaraq işləyir və doktorantura təhsili alır.

– *Hazırda Almaniyada çalışırsınız. Bu ölkəyə gəlişiniz nə ilə bağlı idi?*

– Almaniyaya gəlişim elmi-tədqiqat və akademik fəaliyyətimi genişləndirmək məqsədi daşıyırdı. Burada həm kompüter elmləri üzrə nəzəri, həm də tətbiqi sahələrdə özümü inkişaf etdirmək, beynəlxalq elm mühitində fəaliyyət göstərmək istədim. Almaniyanın elmin inkişafına verdiyi dəyər və imkanlar gözləntilərimi doğrultdu. Universitetlərdə və elmi mərkəzlərdə yaradılan mühit, tədqiqat imkanları, beynəlxalq əməkdaşlıqlar alimlərin inkişafına çox böyük dəstək olur.

– *Tədqiqatçı kimi hansı mövzular üzərində çalışır və bu mövzular sizin üçün nə dərəcədə maraqlıdır?*

– Tədqiqat mövzum müxtəlif süni intellekt modelləri və alqoritmləri haqqında olub, onların, xüsusilə mətn tipli məlumatlar üzərində qiymətləndirmə (assessment) və aşkarlama (detection) proseslərində necə düşündüyünü və qərar verdiyini araşdırır. Bu məqsədlə təhsil materiallarından, xüsusilə açıq təhsil resurslarından (OER) istifadə edirəm. Bu seçim, bu materialların sadəcə tədqiqatda vasitə olması ilə qalmır, həm də araşdırmanı təhsil müstəvisinə daşıyaraq təhsil sistemində süni intellekt tətbiqlərinə dair elmi nəticələr ortaya qoyur və OER-in inkişafına töhfə verir.

Bu istiqamət mənim üçün həm kompüter elmləri mütəxəssisi, həm də pedaqoq kimi çox maraqlıdır.

– *Almaniyanın Elm və Tədqiqatlar Nazirliyi tərəfindən dəstəklənən və iştirak etdiyiniz hansı layihələri qeyd edərdiniz?*

– Hazırda Almaniya Təhsil və Tədqiqat Nazirliyinin (BMBF) dəstəyi ilə həyata keçirilən 2 layihə üzərində işləyirəm. Onlardan biri UNESCO ilə əməkdaşlıqda açıq təhsil resurslarında süni intellektin rolu və potensialı barədədir. Bu layihələr çərçivəsində həm nəzəri tədqiqat aparır, həm də praktik həllərin işlənib hazırlanmasına töhfə verirəm.

Elə bu çərçivədə, 2024-cü ilin noyabrında UNESCO-nun "3rd UNESCO World OER Congress" konqresində "Almaniya-UNESCO" komissiyası ilə birgə iştirak etmişdim. Bundan əlavə, BMBF-nin dəstəyi ilə 2025-ci ilin iyununda Londonda açıq təhsil resurslarına həsr olunmuş konfransda 90 dəqiqəlik vörkşop təşkil etmişəm. Konfransda süni intellektin açıq təhsildə texniki aspektdən imkanları, məhdudiyyətləri barədə iştirakçılarla geniş müzakirə aparmışdım. Əlavə olaraq yenə də UNESCO-nun dəstəyi ilə keçirilən "OER Master" proqramı üzrə çoxsaylı seminarlarda tələbələrlə interaktiv sessiyalar keçirirəm və başqa beynəlxalq tədbirlərdə də iştirak edirəm.

– *Açıq öyrənmə üsullarının təhsil sistemində rolu və əhəmiyyəti barədə nə deyərdiniz?*

– Açıq təhsil resursları təhsildə əlçatanlıq, uyğunlaşa bilmək və kollektiv işləmək (əməkdaşlıq etmək) prinsiplərinə dayanaraq, öyrənənlər və öyrədənlərə yeni imkanlar yaradır, təhsildə bərabərliyi, innovasiyanı və davamlılığı təşviq edir.

Nümunə olaraq, açıq lisenziya altında dərc olunmuş elmi vəsaitlər, onlayn kurslar, multimedia materiallarını göstərə bilərik. 2002-ci ildən UNESCO tərəfindən dəstəklənən bu layihə, həmçinin Birləşmiş Millətlər Təşkilatının Davamlı İnkişaf Məqsədlərindən 4-cü bəndi (hamı üçün keyfiyyətli təhsil) birbaşa dəstəkləyir.

Bütün dünyada açıq öyrənmə modelinə inteqrasiya sürətlə artır və süni intellekt təhsil sahəsinin bu və digər mənalarda ayrılmaz hissəsinə çevrilir.

Bu baxımdan, həm üzərində işlədiyim elmi-tədqiqat mövzum, həm də layihələrdə elmi-tədqiqatçı olaraq işlədiyim mövzular təhsil sistemi üçün olduqca perspektivlidir.

Ölkəmizin təhsil sistemi üçün perspektivlərinə gəlincə, deməliyəm ki, OER Dünya Xəritəsindən (OER World Map) və digər mənbələrdən əldə etdiyim məlumatlara əsasən, Azərbaycanın digər ölkələrlə müqayisədə açıq təhsil resursları təşəbbüslərində iştirakı nisbətən məhduddur.

– *Müasir süni intellektin təhsildə rolu əhəmiyyətli dərəcədə artır. Sizcə, bu nə dərəcədə faydalı, qorxuludur və niyə?*

– Günümüzdə, süni intellektin təhsildə rolu sürətlə artmaqda və öyrənənlərin bilikləri əldə etmə formasını və müəllimlərin onu necə çatdırdığını yenidən formalaşdırmaqdadır. Təhsilin innovasiya və inkişafın əsas hərəkətverici qüvvəsi kimi süni intellekt öyrənməni fərdiləşdirmək, inklüzivliyi artırmaq, əlçatanlığı asanlaşdırmaq, müəllimləri ağıllı sistemlərlə dəstəkləmək üçün çoxlu imkanlar təklif edir. Amma doğru istifadə edilmədiyi halda, o eyni zamanda qərəzlilik, şagird və tələbələrdə süni intellekt tətbiqlərindən asılılıq, nəticədə problem həll edə bilmək və ya tənqidi düşünmək kimi vacib koqnitiv bacarıqların zəifləməsi, tədris prosesində müəllimin rolunun getdikcə azalmasına, həm müəllim, həm şagird aspektindən sosial-emosional öyrənmə problemləri, öyrətmə prosesində kreativliyin zəifləməsi və digər problemlərə səbəb ola bilər.

– *Sizcə, süni intellektdən istifadənin çərçivəsi necə olmalıdır? Nəzərə alsaq ki, həm şagirdlər, həm tələbələr, həm də müəllimlər Sİ-dən istifadə imkanlarını genişləndirirlər.*

– Təhsilin təməlini pedaqogika və didaktika təşkil etdiyindən təhsildə süni intellektdən istifadə də bu prinsiplərə əməl etməlidir. Hazırda dünyada süni intellektin təhsildə tətbiqlərinin yaratdığı və yarada biləcəyi problemlər geniş şəkildə müzakirə olunur. Bu müzakirə mənim 2025-ci ilin iyununda Londonda keçirilən "OER25" konfransında təşkil etdiyim 90 dəqiqəlik vörkşopun əsas müzakirə aspektlərindən biri idi.

Süni intellekt pedaqoqların təhsildə insan rolunu əvəz etmədən tədrisi və öyrənməni təkmilləşdirən dəstəkləyici vasitə kimi inteqrasiya edilməlidir. Onun istifadəsi pedaqoji qaydalara mütləq şəkildə uyğunlaşaraq, süni intellektlə zəngin bir mühitdə tələbələrin təkcə bilik əldə etməsini deyil, həm də tənqidi düşüncə, yaradıcılıq və məsuliyyəti inkişaf etdirməsini təmin etməlidir.

– *Elmi məqalələrin yazılmasında süni intellektdən sui-istifadə mötəbər nəşrlər və mənbələr üçün nə dərəcədə təhlükəlidir və bunun qarşısını ala biləcək mexanizmlər varmı?*

– Elmi məqalələrdə süni intellektdən istifadə risklidir, çünki bu, plagiat, "SI halusinasiyası" problemi səbəbindən məlumatın yanlışlığı, həmçinin yanlış istinadlara səbəb ola bilər. "Elsevier", "Springer", "IEEE" kimi böyük nəşriyyatlar bu cür sui-istifadələri qadağan edir və qarşısını almaq üçün süni intellekt aşkarlama vasitələrini getdikcə daha çox tətbiq edirlər. Buna görə də ən təhlükəsiz təcrübə süni intellektdən yalnız dəstəkləyici vasitə kimi istifadə etməkdir.

– *Azərbaycanın elm və təhsilində öz yerinizi necə görürsünüz? Nə kimi töhfələr verməyi düşünürsünüz?*

– Təhsil yeni biliklər, qlobal inkişaf, texnoloji tərəqqi ilə formalaşan davamlı dəyişən və inkişaf edən bir sahədir. Azərbaycanda bu dəyişiklik rəqəmsal təhsilə artan tələbatda, süni intellekt alətlərinin tətbiqində və açıq təhsil resurslarının son zamanlarda mənimsənilməsində özünü göstərir. Müasir dövrdə təhsil sistemi innovasiyaları əhatə etməli, şagirdlərin həm milli inkişaf, həm də qlobal rəqabət üçün lazım olan bacarıqlarla təchiz olunmasını təmin etməlidir.

Bu mənada, Almaniyada elm və təhsil sahəsində qazandığım bilik və təcrübələrə əsaslanaraq, Azərbaycanın təhsil sistemində beynəlxalq standartlara cavab verən rəqəmsallaşma və innovasiyanın inkişafına dəstək olmaq, açıq təhsil resurslarının tətbiqini genişləndirmək və süni intellekt texnologiyalarını tədris prinsiplərinə uyğun şəkildə inteqrasiya etmək mənim əsas töhfəm ola bilər.

**Oruc MUSTAFAYEV**

# Uğur hekayələri

## Yataqxanadan başlayan tələbəlik həyatı

### Gənclər Qarabağ Universitetində oxumağın qürurunu yaşayırlar

**Bu** dəfə yolumuzu Qarabağ Universitetinin yataqxanasına saldıq. Tələbələrin ixtiyarına verilən 7 mənzil tipli binadan ibarət olan yataqxanada 1700 tələbə yaşayacaq. 312 otaq ən müasir avadanlıqlarla təmin olunub. Tələbə yataqxanasına yaxınlaşanda ilk eşitdiyim gənclərin "Tələbəlik həyatımız yataqxanadan başlayacaq" sözləri oldu. Onlar bu il Qarabağ Universitetinə qəbul olublar. Şəhla Şükürlü "İngilis dili müəllimliyi", Xədicə Manaflı isə "Biologiya" ixtisaslarını seçib. Qızlar yataqxanada hər cür şəraitin olduğunu bildirirlər: "Uşaqlıqda bu şəhər haqqında valideynlərimizdən eşitdiklərimizdən də gözəl mənzərə ilə qarşılaşdıq. Yataqxanamızın universitetə yaxın olması da bizi sevindirir, lap bir addımlığımızdadır".












Fatimə Abışova və Nigar Abışova ilə söhbətimizdə gənclər Qarabağ Universitetində təhsil almaq ən böyük arzuları olduqlarını söyləyirlər: "Bir vaxtlar bu universitetdə oxuyan qohumlarımız, tanışlarımız tələbəlik illərində təəssüratlarından danışanda kövrəlirdilər. Şükürlər olsun ki, artıq Qarabağ azaddır. Və biz də Qarabağ Universitetində təhsil alırıq. Bu hissləri yaşamaq olduqca qürurvericidir".

Ayxan Allahverdiyev də Qarabağ Universitetinin "Coğrafiya" ixtisasına bu il qəbul olunanlardandır. Söhbətimiz zamanı bildirir ki, ona verilən otaqdan razıdır: "Otağımız geniş və işıqlıdır, ən müasir mebellərlə, avadanlıqlarla təmin olunub. Oxumaq üçün hər bir şərait var. Biz də öz növbəmizdə səliqə-sahmana riayət etməliyik".

Ayxan deyir ki, yataqxanada yerləşmək hər bir tələbə üçün maddi baxımından olduqca əlverişlidir. Yataqxananın universitetə yaxın olması isə vaxta qənaət baxımından çox gözəldir. Digər həmsöhbətimiz Tunay İsgəndərov isə universitetin Tibb fakültəsində təhsil alır. O, sayılıb-seçilən həkimlərdən biri olmaq istəyir.

Biz orada olduğumuz müddətdə yataqxanaya köç hələ davam edirdi. Tələbələrin hər biri növbə ilə otaqlarının açarlarını alaraq əşyalarını yerləşdirirlər. Sonra otaq yoldaşları ilə tanışlıq başlayır. Ən azı 4 il bu gənclər bir-biri ilə ünsiyyətdə olacaq, acılı-şirinli günlərini birlikdə paylaşaraq tələbəliyin ən gözəl çağlarını yaşayacaqlar...

**Səriyyə MÜSLÜMQIZI**

## Üç ölkədə təhsil təcrübəsi

Gədəbəy rayonunun Novosaratovka kəndində təhsil həyatına başlayan Məhsəti Bayramova dünyanın müxtəlif ölkələrində təhsil alaraq uğurları ilə seçilən gənclərdəndir. Hələ 9-cu sinifdən xaricdə təhsilə maraq göstərən Məhsəti 16 yaşında AFS proqramı ilə Çinə yollanaraq bir ay ərzində müxtəlif seminar və tədbirlərdə iştirak edib. Daha sonra Hindistana gedərək 85% təqaüdlə IB proqramını tamamlayıb və hazırda ABŞ-nin Tampa Universitetində tam təqaüdlə təhsil alır.

Hər addımında könüllülük və yeni təcrübələrlə özünü inkişaf etdirən Məhsəti xaricdəki təhsil və həyat təcrübələri barədə təəssüratlarını "Azərbaycan müəllimi"nə danışıb.

Məhsəti Bayramova bir neçə könüllülük fəaliyyətində iştirak etdikdən və araşdırmalar apardıqdan sonra 16 yaşında ilk dəfə Çinə yollanıb. AFS proqramı çərçivəsində bir ay ərzində Çinin bir neçə şəhərində olub. Bu proqramın bütün xərcləri AFS tərəfindən qarşılanıb. Çindən qayıdan kimi Hindistana 2 illik İB proqramı üzrə 11 və 12-ci sinif təhsilini tamamlamağa gedib.



### "Uğurun sirri öz potensialını kəşf etməkdir"

O, Milli Komitənin təqdimatı əsasında Hindistanda yerləşən UWC Mahindra Kollecində 2023-2025-ci illərdə 85% təqaüdlə təhsil alıb. Bu təqaüdü qazanmaq üçün UWC-nin Azərbaycandakı komitəsinin təşkil etdiyi çoxmərhələli müsahibə və sınaqlardan uğurla keçib: "UWC Mahindra kollecində 80-dən çox ölkənin şagirdi vardı. Biz həm məktəblilər üçün ən yaxşı təhsil sistemlərindən birində oxuyur, həm də Hindistanın müxtəlif bölgələrinə səyahət edərək dünyagörüşümüzü artırırdıq. Məktəbimiz "UWC Davis Scholars" təqaüd proqramının bir hissəsi olduğuna görə burada təhsilimi başa vurduqdan sonra universitet təhsilimizin illik xərcləri də qarşılanır. Hazırda ABŞ-nin Florida ştatında yerləşən Tampa Universitetində tam təqaüdlə təhsil alıram".

Xaricdə təhsilə marağı hələ məktəb illərində müxtəlif könüllülük proqramlarında iştirak etməsi ilə möhkəmlənib. "Green Club", IDEA, "Bakı zooparkı" və digər layihələrdə könüllü fəaliyyəti onun kommunikasiya bacarıqlarını inkişaf etdirməsinə, çətinliklər qarşısında təmkinli olmasına və beynəlxalq təhsil mühitinə daha hazır hiss etməsinə şərait yaradıb.

AFS proqramı çərçivəsində Çində təhsil təcrübəsi isə onun üçün unudulmaz olub: "Fərqli mədəniyyətlərlə tanış olduqca bu təcrübələrin mənə necə maraqlı hekayələr qazandırdığını daha yaxşı anlayıram. Müxtəlif düşüncələrə sahib insanlarla ünsiyyət qurmaq, fərqli şəhərləri və qədim məbədləri görmək mənə mədəniyyətlərin rəngarəngliyini hiss etdirdi".

Tampa Universiteti isə Məhsəti üçün ideal seçim olub: "İqlimi, şəhəri, təhsil proqramları və resursları ilə fərqlənən bu universitetdə oxumaq xəyalım idi. Qəbul məktubumu aldığım gün dostlarımla bu sevinci paylaşdım".

Hindistana qəbul olduğunda isə əvvəlcə getmək istəməyib: "Düşünürdüm ki, uzaq ölkədir və orada təcrübəm olmayacaq. Amma ailəm məni dəstəklədi, dedilər ki, bu, böyük fürsətdir. Daha sonra məktəbimizdən Hindistana getmiş bir şagirdlə danışdım və onun təcrübəsini eşidəndən sonra fikrim dəyişdi".

Amerikaya qəbul olunanda isə vəziyyət bir qədər fərqli olub: "Ailəmlə əvvəldən danışmışdım, onlar qəbul şansımı bilirdilər, amma əsas məsələ təqaüd idi. Tam təqaüd aldığımı öyrənəndə ailəm çox sevindi. Bu, həyatımın ən unudulmaz anlarından biri oldu".

Məhsəti uşaqlıqda kosmonavt olmağı arzulasa da, zaman keçdikcə özünü biznes və diplomatiya sahəsinə daha yaxın hiss edib. Hindistanda oxuduğu illərdə isə ən çox psixologiya və teatr fənlərini sevib: "Psixologiya insanın davranışlarını anlamağa kömək edir, teatr isə müxtəlif obrazları canlandıraraq fərqli perspektivləri görməyimə imkan yaradır".

Onun motivasiyasını itirdiyi zamanlar da olub, amma disiplini və qətiyyəti sayəsində hədəflərinə fokuslana bilib: "Uğurun sirri öz potensialını kəşf etməsi, insanın özünə inanması və istəklərinə nail olmaq üçün əlindən gələni etməsidir. Bu yolda ən böyük dəstəkçim anam olub. O, hər zaman arxamda dayanıb və uğurlarımda onun payı çox böyükdür".

**Tünzalə QULİYEVA**

## 78 yaşlı tələbə: "Oxumağın yaşı yoxdur"



Son bir həftədir ki, "78 yaşlı nənə tələbə oldu" adlı başlıqlar ölkə mediasını bəzəyir. Hər kəsdə bu nənə kimdir, bu qərara necə gəlib kimi suallar yaranır. Tələbə nənəni yaxından tanımaq və tanıtmaq üçün "Azərbaycan müəllimi" olaraq Ordubada yola düşürük.

78 yaşlı Hicrət Yusifova bu il Ordubad Peşə Liseyinin "Xalçaçı" ixtisasına qəbul olub. O, peşə təhsili alacaq. Biz ora çatanda o dərsdə idi. Tələbə yoldaşları ilə birlikdə gənc müəllimə diqqətlə qulaq asır, balaca dəftərinə qeydlər edirdi.

Sakitcə dərsin bitməsini gözləyirik. Hicrət nənənin o qədər nurlu siması var ki, oxumaq həvəsinin nədən qaynaqlandığını söhbət etməmişdən anlamaq olur. Pozitiv, enerjili, gülərüz və mehriban.

Dərs bitəndən sonra istehsalat otağına keçirik. Əlinə xalça toxumaq üçün bıçağı alır və başlayır toxumağa. Həvəslə və sevgi ilə edir işini. Bilinir ki, dərsə təzə başlasa da, əvvəldən xalça toxumağı bacarır.

"Hicrət Yusifova 19 noyabr 1946-cı ildə Ordubad şəhərində anadan olub. 5 övladı, 12 nəvəsi və 12 nəticəsi var. 25 il Ordubad ipək kombinatında çalışıb", - bunu bizə özü deyir. Əlavə edir ki, oxumağın, öyrənməyin yaşı yoxdur. Elə bu əzmlə də tələbə adını qazanıb.

Hicrət Yusifova 1953-cü ildə Məhəmməd Tağı Sidqi adına 1 nömrəli tam orta məktəbə gedib. 8-ci sinfi bitirdikdən sonra, 16 yaşında ipək fabrikində işə başlayıb və bir il sonra ailə həyatı qurub. Təhsili yarımçıq qalsa da, hər zaman yenidən oxumaq və orta məktəbi bitirmək arzusunda olub: "Gecə məktəbində oxuyaraq yoldaşımla birlikdə attestat aldıq. 25 il Ordubad ipək fabrikində çalışdım. Elə orada toxuculuq işləri ilə tanış oldum və xalçaçılığa marağım yarandı. Fasilə zamanı parçalar toxuyur, öyrənirdim. Bu sənət bizə həm də qədimdən miras qalmış ənənədir".

Deyir ki, uşaqlıqdan xalça toxumağa marağı olub: "Atamın, anamın və nənəmin evində gözəl xalçalar vardı, onlara heyranlıqla baxardım və düşünürdüm ki, kaş ki, mən də toxuya biləydim".

Bu arzusunun isə artıq reallaşacağı vaxt çatıb: "Telefonda gördüm ki, Ordubadda xalçaçılıq kursu açılacaq, dərhal müraciət etdim. Düşünürdüm ki, yaşımın çoxluğuna görə məni peşə məktəbinə qəbul etməzlər, amma elə olmadı. İlk dəfə sinfə daxil olanda bir az həyəcanlandım, çünki qrup yoldaşlarım məndən xeyli gənc idi. Amma bu, mənim üçün maraqlı bir təcrübə oldu".

Bəs qonum-qonşusu, qohumları bu xəbəri necə qarşılayıb? "Mənfi də, müsbət də qarşılayanlar oldu. Bəziləri təəccüblə qarşılasa da, sosial şəbəkələrdə yazılan müsbət rəylər məni daha da ruhlandırdı", söyləyir. Peşə məktəbini bitirəndə və sərbəst şəkildə xalça toxumağa başlayanda ilk toxuyacağı xalçaya Ordubadın adını vermək istəyir. Deyir o qədər mənzərəli yerlər var, istəyir ki, bu gözəllik xalçaya həkk olunsun, gələcək nəsillərə yadigar qalsın.

"Oxumaq, öyrənmək heç bir yaşda gec deyil, həvəs və maraq varsa, hər zaman oxumaq olar" fikrindədir. Ona görə də oxumaq həvəsi olanlara tövsiyəsi var: "Xalçaçılıq çox gözəl sənətdir. Xüsusilə gənclər gəlsin oxusun, öyrənsinlər. Peyğəmbərimizin də dediyi kimi: "Beşikdən qəbir evinə qədər oxuyun". O qədər həzin və duyğulu söhbət edir ki, insan söhbəti bitirmək istəmir. Amma onun da növbəti dərsi və öyrənmək istədikləri var.

Sağollaşıb xoş təəssüratlarla Ordubaddan ayrılırıq. Yəqin ki, yenidən görüşəcəyik, ilk toxuduğu xalça hazır olanda...

**Aytən YUSİFOVA,**
*Naxçıvan Muxtar Respublikası üzrə təmsilçi*

# Azərbaycan komandaları “TEKNOFEST-2025 İstanbul”da yüksək nəticə əldə ediblər

Azərbaycan universitetlərinin komandaları “TEKNOFEST-2025 İstanbul”da mühüm nailiyyətlər qazanıblar. Sentyabrın 17-21-də İstanbulda keçirilən və dünyanın ən böyük aerokosmik və texnologiya festivalı hesab olunan “TEKNOFEST-2025”də Azərbaycan universitetlərinin komandaları müxtəlif kateqoriyalarda yüksək nəticələr əldə ediblər.

Bakı Dövlət Universitetinin “BSU SSTCC” komandası festivalın qaliblərindən olub. Komanda “Əngəlsiz həyat texnologiyaları” kateqoriyasında təqdim etdiyi “NeuroScreen” layihəsi ilə I yerə layiq görülüb. Layihə iflicli xəstələrin beyin siqnallarının oxunması və filtrlənməsi yolu ilə müxtəlif ağıllı ev texnologiyalarının, rəqəmsal cihazların və robot əsaslı orqanların idarəsini təmin etməklə yanaşı, xəstələrin sağlamlıq vəziyyətinin süni intellekt əsasında monitorinqini aparmaq məqsədi daşıyır.

Bakı Ali Neft Məktəbi (BANM) də festivalda bir neçə komanda ilə iştirak edərək uğurlu nəticələr göstərib. Belə ki:

* *“Zəngəzur BHOS” komandası “Maliyyə texnologiyaları” kateqoriyasında “Ticarətləşmə potensialı” mükafatına layiq görülüb.*
* *“Daşaltı BHOS” komandası eyni kateqoriyada II yerin qalibi olub.*
* *“Xudafərin BHOS” komandası “Ağıllı nəqliyyat” kateqoriyasında III yeri tutub.*
* *“Aypara BHOS” komandası isə ASTROGUARD layihəsi ilə münsiflər heyətinin xüsusi mükafatını qazanıb.*

Qeyd edək ki, bu il 96 ölkədən 565 mindən çox komanda festivalda iştirak üçün müraciət edib. BANM komandalarının uğurlu çıxışında isə İnnovasiya və Tədqiqatlar Mərkəzinin müdiri Emiliya Əhmədova və müəllim Aydın Nəsirzadə mentor kimi yaxından iştirak ediblər.




## “AZƏRBAYCAN MÜƏLLİMİ”

**Qəzet 1934-cü ildən çıxır**

**Baş redaktor**
Sarvan İbrahimov

**Reklam və elanlar:** 539-20-77; elan@media.edu.az

**Ünvan:** AZ-1052, Bakı şəhəri, Nərimanov rayonu, Fətəli xan Xoyski, 109

Qəzet “Azərbaycan müəllimi”nin kompüter mərkəzində yığılır və “Azərbaycan nəşriyyatı” MMC-də çap olunur

Qəzet hər həftənin şənbə günü çıxır

**Bank hesabımız**
Azərbaycan Beynəlxalq Bankı Şərifzadə filialı
Kodu: 805142 VÖEN: 9900001881
M/h: AZ 03 NABZ 01350100000000002944
S.W.I.F.T.: IBAZAZ 2X

“Azərbaycan müəllimi” qəzeti redaksiyası
Hesab № AZ80 IBAZ38060019443164986350
VÖEN: 1300397831

**Lisenziya:** № 022327 **İndeks:** 0003

**Tiraj:** 37992 **Sifariş:** 1999

**Məsul növbətçi:** O.Mustafayev





# “Azərbaycan dili və ədəbiyyat tədrisi” jurnalının 3-cü sayı işıq üzü görüb

Elm və Təhsil Nazirliyinin elmi-metodik nəşri “Azərbaycan dili və ədəbiyyat tədrisi” jurnalının növbəti buraxılışı işıq üzü görüb.

Bu sayda təqdim olunan 13 elmi məqalədə dilçilik və ədəbiyyatşünaslığın müxtəlif məsələləri, klassik və müasir ədəbi nümunələrin təhlili, eləcə də tədris prosesində dil və ədəbiyyatın öyrədilməsi ilə bağlı aktual mövzular araşdırılır.

Jurnalın bu buraxılışında filologiya elmləri doktoru, professor Sədaqət Həsənovanın “Dilin sadələşməsində poeziyanın rolu”, Tipaza Universitet Mərkəzi, Ərəb dili və ədəbiyyatı İnstitutunun professoru Halimi Hüseynin “Pedaqogikada yaradıcı gərginlik: qlobal tənqidi metodologiyaların Azərbaycan dili və ədəbiyyatının tədrisinə inteqrasiyası”, filologiya üzrə fəlsəfə doktoru Elşad Abışovun “Müasir türk dillərində zərf”, pedaqogika üzrə fəlsəfə doktoru Könül Məmmədovanın “İbtidai siniflərdə feil - hərəkət bildirən sözlər kimi”, filologiya üzrə fəlsəfə doktoru Şöhrət Məmmədovanın “Uşaq dramlarının etnokultroloji semantikası”, filologiya üzrə fəlsəfə doktoru Rəhilə Hümmətovanın “İmadəddin Nəsiminin poetik dilində mürəkkəb cümlənin struktur modelləri”, pedaqogika üzrə fəlsəfə doktoru Fəridə Səfərəliyevanın “Şagirdlərin lüğət ehtiyatının artırılmasında oxu materiallarından istifadə”, filologiya üzrə fəlsəfə doktoru Fəxriyyə Cəfərovanın “Aşıq poeziyasında dialoq mədəniyyəti”, pedaqogika üzrə fəlsəfə doktoru Maya Qasımovanın “İbtidai sinif şagirdlərinin yazılarındakı səhvlərin islahı rabitəli nitqin inkişafı üzrə işin əsası kimi”, filologiya üzrə fəlsəfə doktoru Ulduz Qəhrəmanovanın “Bədii yaradıcılıqda sələf-xələf əlaqələri”, filologiya üzrə fəlsəfə doktoru Günel Hümmətovanın (Pəniyeva) “Dastani-Əhməd Hərami” poeması yeni təhlil müstəvisində”, filologiya üzrə fəlsəfə doktoru Sevinc Qəmbərovanın “Patrik Züskind: “Parfümer” və Jan-Batist Qrenuy” və ADPU-nun müəllimi Aynur Bədəlovanın “Mahirə Nağıqızının “Mənim çəkmələrim” hekayəsində vətən həsrətinin təcəssümü” adlı məqalələri dərc edilib.

# Etibarsız sayılır

**Füzuli rayon** 2 nömrəli tam orta məktəbi 2009-cu ildə bitirmiş Mirzəyeva Cəvahir Yelmar qızına verilmiş 673875 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 246 nömrəli məktəb-liseyi 2009-cu ildə bitirmiş Hüseynzadə Şahnaz Şahin qızına verilmiş B-588438 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Masallı rayon** Hüseynhacılı kənd tam orta ümumtəhsil məktəbi 2019-cu ildə bitirmiş Abdullayeva Günay Fərahim qızına verilmiş E-224582 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Goranboy rayon** Dəliməmmədli şəhər tam orta məktəbi 1980-ci ildə bitirmiş Bayramova Minayə Əli qızına verilmiş 422740 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Sumqayıt şəhər** 38 nömrəli tam orta məktəbi 2005-ci ildə bitirmiş Qubadov Rəşad Əmirxan oğluna verilmiş B-221169 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Dövlət Pedaqoji Universiteti** tərəfindən 2007-ci ildə Həsənova Esmira Mahmud qızına verilmiş B-089904 nömrəli bakalavr diplomu itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Dövlət İqtisad Universiteti** tərəfindən 2010-cu ildə Abdullayeva Leyla Rauf qızına verilmiş YB-012901 nömrəli Yenidənhazırlanma haqqında diplom itdiyi üçün etibarsız sayılır.

**Göyçay şəhər** 1 nömrəli tam orta məktəbi 1997-ci ildə bitirmiş Abdullayeva Tərlan Aydın qızına verilmiş 174501 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı Humanitar Kolleci** (Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin nəzdində Humanitar Kollec) tərəfindən 2016-cı ildə Quliyeva (Əliyeva) Lalə Murad qızına verilmiş AA-076726 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**Bakı İdarəetmə və Texnologiya Kolleci** tərəfindən 2018-ci ildə Krupenin Teymur İlham oğluna verilmiş AA-114326 nömrəli subbakalavr diplomu itdiyi üçün etibarsız sayılır.

**Qəbələ Dövlət Peşə Təhsil Mərkəzi** tərəfindən 2022-ci ildə Əhmədov Sənan İbrahim oğluna verilmiş A-158392 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Dövlət İqtisad Universiteti** tərəfindən 2022-ci ildə Rəhimova Türkan Fuad qızına verilmiş C-096687 nömrəli fərqlənmə bakalavr diplomu itdiyi üçün etibrsız sayılır.

**Bakı Sosial İdarəetmə və Palitologiya İnstitutu** tərəfindən 1997-ci ildə Abdullayeva Leyla Rauf qızına verilmiş A-011251 nömrəli fərqlənmə bakalavr diplomu itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 202 nömrəli tam orta məktəbi 2009-cu ildə bitirmiş Orucova Sevinc Bağban qızına verilmiş B-593805 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır

**Gəncə şəhər** 1 nömrəli tam orta ümumtəhsil məktəbi 2018-ci ildə bitirmiş Zeynalov İbrahim İkram oğluna verilmiş E-132672 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Gəncə şəhər** 16 nömrəli tam orta ümumtəhsil məktəbi 2009-cu ildə bitirmiş Şahidzadə (Qədirova) Gülnar Musa qızına verilmiş B-615365 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Gəncə şəhər** 39 nömrəli tam orta ümumtəhsil məktəbin IX sinfini 2022-ci ildə bitirmiş Abdullayev Fərman Razim oğluna verilmiş C-627358 nömrəli ümumi orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Gəncə şəhər** 1 nömrəli tam orta ümumtəhsil məktəbi 2020-ci ildə bitirmiş Rəhimli Fidan Samir qızına verilmiş E-343851 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Gəncə şəhər** 32 nömrəli tam orta ümumtəhsil məktəbi 1985-ci ildə bitirmiş Mehdiyeva Kifayət Sədrəddin qızına verilmiş C-024535 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Sumqayıt şəhər** 1 nömrəli tam orta məktəbi 2011-ci ildə bitirmiş Əsədova Solmaz Sərdar qızına verilmiş A-031054 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Lənkəran rayon** Boladi kənd 1 nömrəli tam orta ümumtəhsil məktəbin IX sinfini 2009-cu ildə bitirmiş Axundzadə Emil Xalid oğluna verilmiş A-862893 nömrəli ümumi orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Dövlət İqtisad Universiteti** tərəfindən 2008-ci ildə Həmzəyev Sahib Vaqif oğluna verilmiş YB-008476 nömrəli Yenidənhazırlanma haqqında diplom itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 269 nömrəli tam orta məktəbi 2015-ci ildə bitirmiş Şərifov Fərid Şərif oğluna verilmiş A-413618 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Ağdam rayon** Paşabəyli kənd tam orta məktəbi 2009-cu ildə bitirmiş Sadıqov Elgün Yasin oğluna verilmiş B-657859 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Tibb Universiteti** tərəfindən 2008-ci ildə Nəzərova (Əliyeva) Sevinc Hidayət qızına verilmiş B-108222 nömrəli bakalavr diplomu və diploma əlavə itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 86 nömrəli tam orta məktəbi 2005-ci ildə bitirmiş Vəliyev Ramin Söhbət oğluna verilmiş B-131128 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Lənkəran rayon** Girdəni kənd tam orta məktəbin VIII sinfini 1981-ci ildə bitirmiş Əliyeva (Rəhmanova) Gülzadə Mehrəli qızına verilmiş A3-II-192642 nömrəli ümumi orta təhsil haqqında şəhadətnamə itdiyi üçün etibarsız sayılır.

**Bakı Rabitə Kolleci** tərəfindən 2000-ci ildə Abdullayev Anar Hüseynağa oğluna verilmiş AB-II-058901 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 318 nömrəli tam orta məktəbi 2024-cü ildə bitirmiş İbrahimli Məhəmməd Hamlet oğluna verilmiş E-656587 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Odlar Yurdu Universiteti** tərəfindən 2010-cu ildə Həsənova Aytən Əbülfət qızına verilmiş BB-I-015509 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**Sumqayıt şəhər** 1 nömrəli tam orta məktəbi 2022-ci ildə bitirmiş Ağazadə Aytac Vidadi qızına verilmiş E-507405 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Sumqayıt şəhər** 13 nömrəli tam orta məktəbi 2022-ci ildə bitirmiş Abdullayeva Gülövşə Fəxrəddin qızına verilmiş E-506574 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Abşeron rayon** Masazır kənd 2 nömrəli tam orta ümumtəhsil məktəbi 2015-ci ildə bitirmiş Nizamzadə Coşqun Hafis oğluna verilmiş A-420453 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Göygöl rayon** Topalhəsənli kənd tam orta ümumtəhsil məktəbin IX sinfini 2016-cı ildə bitirmiş Əliquliyeva Əfsanə Gəncəvi qızına verilmiş A-655036 nömrəli ümumi orta təhsil haqqında attestat və 2018-ci ildə verilmiş E-126124 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Şəmkir rayon** Zəyəm Cırdaxan kənd tam orta məktəbi 2008-ci ildə bitirmiş Abbasova Aysel Bəxtiyar qızına verilmiş B-539730 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Quba rayon** Xınalıq kənd tam orta məktəbin IX sinfini 2020-ci ildə bitirmiş İsmayılova Rəşidə Müşfiq qızına verilmiş C-397234 nömrəli ümumi orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı Slavyan Universiteti** tərəfindən 2010-cu ildə Cəfərova Günay Şaiq qızına verilmiş B-167950 nömrəli bakalavr diplomu və diploma əlavə itdiyi üçün etibarsız sayılır.

**Cəlilabad rayon** Cəfərxanlı kənd ümumi orta məktəbin IX sinfini 2025-ci ildə bitirmiş Paşayev Qorxmaz Əlikömək oğluna verilmiş F-117408 nömrəli ümumi orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Sumqayıt şəhər** 24 nömrəli tam orta ümumtəhsil məktəbin IX sinfini 1996-cı ildə bitirmiş Salahova (Məmmədova) Gülər Xanlar qızına verilmiş B-147196 nömrəli ümumi orta təhsil haqqında şəhadətnamə itdiyi üçün etibarsız sayılır.

**Cəlilabad rayon** Göytəpə şəhər 1 nömrəli tam orta məktəbin IX sinfini 2019-cu ildə bitirmiş Axundov Vaqif Famil oğluna verilmiş C-258919 nömrəli ümumi orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Gəncə şəhər** 24 nömrəli tam orta ümumtəhsil məktəbi 2006-cı ildə bitirmiş Nəbiyeva İlahə Rəsul qızına verilmiş B-247682 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Ucar rayon** Bərgüşad kənd 1 nömrəli tam orta ümumtəhsil məktəbin IX sinfini 2002-ci ildə bitirmiş Kazımov Tural Məhərrəm oğluna verilmiş 541876 nömrəli ümumi orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Şirvan Dövlət İqtisadiyyat və Humanitar Kolleci** tərəfindən 2016-cı ildə Adıgözəlov Ceyhun Nəsib oğluna verilmiş AA-072184 nömrəli subbakalavr diplomuna əlavə itdiyi üçün etibarsız sayılır.

**Masallı rayon** Dəlləkoba kənd ümumi orta ümumtəhsil məktəbin IX sinfini 2006-cı ildə bitirmiş Eynullayeva Səbinə Hacıbala qızına verilmiş A-344220 nömrəli ümumi orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Şuşa Humanitar Kolleci** tərəfindən 2006-cı ildə Allahverdiyeva Reyhanə Sovet qızına verilmiş BB-II-041504 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**Tovuz rayon** Dönük Qırıqlı kənd tam orta ümumtəhsil məktəbi 2017-ci ildə bitirmiş Həsənov Valeh Ələddin oğluna verilmiş E-079658 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Cəbrayıl rayon** Çərəkən kənd tam orta məktəbi 2011-ci ildə bitirmiş Mustafazadə Azər Vəli oğluna verilmiş A-043140 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Dövlət Neft Akademiyası** tərəfindən 2015-ci ildə Mustafazadə Azər Vəli oğluna verilmiş A-055493 nömrəli bakalavr diplomu və diplama əlavə itdiyi üçün etibarsız sayılır.

**Bakı Turizm Peşə Məktəbi** tərəfindən 2014-cü ildə Şirinova Milana Ağaxanovnaya verilmiş A-058331 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 13 nömrəli tam orta məktəbi 2009-cu ildə bitirmiş Nəsirova Firəngiz Əli qızına verilmiş B-589166 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Dövlət İqtisad Universiteti** tərəfindən 2011-ci ildə Cəfərov Elşən Məhərrəm oğluna verilmiş B-210601 nömrəli bakalavr diplomu və diploma əlavə itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 68 nömrəli tam orta məktəbi 2020-ci ildə bitirmiş Məmmədov Nicat İrzavil oğluna verilmiş E-278385 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 236 nömrəli tam orta məktəbi 2006-cı ildə bitirmiş Mehrəliyev Qismət Yevqeni oğluna verilmiş B-301624 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**SSRİ-nin 50 illiyi adına Azərbaycan Pedaqoji Xarici Dillər İnstitutu** tərəfindən 1990-cı ildə Hüseynova Rəsmiyə Cəlal qızına verilmiş TB-I-088582 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 318 nömrəli tam orta məktəbi 2022-ci ildə bitirmiş Məmmədov Ayhan Həsən oğluna verilmiş E-461519 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Ağdam rayon** Bənövşələr kənd tam orta məktəbi 2002-ci ildə bitirmiş Abbasov Nicat İlqar oğluna verilmiş A-617653 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Masallı şəhər** “Dəfinə” liseyini 2001-ci ildə bitirmiş Süleymanov Turan Süleyman oğluna verilmiş A-554243 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Balakən rayon** Surağat Qurbanov adına Katex 1 nömrəli kənd tam orta məktəbi 1983-cü ildə bitirmiş Məmmədova Zülfiyyə Muzaməddin qızına verilmiş 762087 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Lənkəran şəhər** 2 nömrəli tam orta məktəbi 2017-ci ildə bitirmiş Həsənzadə Nigar İlham qızına verilmiş E-047793 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**“Oxbridge Academy” MMC-nin** məzunu Zeynallı Xəzər Mikayıl oğluna Elm və Təhsil Nazirliyi tərəfindən 2024-cü ildə verilmiş E-686864 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

## ALLAH RƏHMƏT ELƏSİN!

İdrak liseyinin rəhbərliyi və pedaqoji kollektivi liseyin sinif rəhbəri Nigar Mehrəlizadəyə atası

**RAUF TAĞIZADƏNİN**

vəfatından kədərləndiklərini bildirir və ailəsinə dərin hüznlə başsağlığı verirlər.